## Şəhid mayor Rasim Məmmədovun xatirəsi anıldı


# Hürriyyət

SİZİN ÜÇÜN QƏZET

№12 (3351) 8 Aprel / 2025-ci il | Həftədə 1 dəfə çıxır | Qiymәti: 60 qəpik


ANA XƏBƏR




## Xaçmazda müəmmalı qətl olayı

# Bakıda “Rus Evi”nin fəaliyyəti bərpa olunur?

Primakov yenə peyda olub və “kompromis”dən danışır




GÜNÜN NƏBZİ

Gündəm



### ADP-dən Türkiyədə keçirilən mitinqlərə reaksiya

“Bu olayların qardaş ölkənin daxili sabitliyinə mənfi təsir göstərməsindən narahatıq” 3

Şikayət

### "Oğlum özünü asmayıb, onu işgəncə ilə öldürüblər"

Goranboy sakini övladının hərbi xidmətdə qətlə yetirildiyini iddia edir 10

Fakt

### Qarabağ veteranı nazirliyi məhkəmədə uddu, amma

Müdafiə Nazirliyi məhkəmə qərarını yerinə yetirməməkdə israrlıdır 2

Şikayət

### Astarada 540 ailəyə qarşı dələduzluq

Bank əməkdaşlarının milyonluq fırıldağı... 10

Fakt

### Sumqayıt Bələdiyyəsi “qaz vurub, qazan doldurur”

Hətta Bələdiyyə mülkiyyətində olmayan torpaqlar da qanunsuz yollarla satılır 2

Toplum

### Mübariz Mənsimovun oğlu müəllimə “atıb”



Məcid Mənsimov üzərində atasının, babasının və nənəsinin rəsmi olan xalça toxutdurdu, pulunu vermədi 7

Toplum

### İşdən qanunsuz olaraq çıxarıldı, 16 il maaşını DSK sədri aldı



Gəncə şəhər sakini Faiq Hacıyevdən DSK sədri Eldar Əhmədova qarşı şok ittihamlar 7

Layihə

## Regionda yaranmış yeni reallıqlar...

Vətən müharibəsində əldə etdiyimiz qələbə təkcə ölkəmizin deyil, regionun təhlükəsizliyinə töhfə oldu

Qəhrəman hərbçilərimizin şücaəti, Prezident İlham Əliyevin diplomatik məharəti, prinsipiallığı, dəqiq və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan dövləti 44 günlük Qarabağ savaşında böyük qələbəyə imza atdı. Bununla da, Ermənistanın işğalı altında olan torpaqlarımız geri qaytarıldı və 30 illik işğala son qoyuldu... 9

Aktual

## Narkotiklə mübarizəyə əngəl olanlar...

Bizim ölkəmizdə də hüquq-mühafizə orqanlarına nəzarət gücləndirilməlidir?

Mart ayının əvvəlində Gürcüstan parlamentində anti-narkotik qanununa sərt cəzalar nəzərdə tutan dəyişikliklərin parlamentə təqdim edilməsi ölkədə ciddi müzakirə mövzusu oldu. Artıq qanunun qəbulu istiqamətində “ilk meyvələr” ola biləcək addımlar da atılıb. Məsələn, ötən həftələrdə qonşu ölkədə 10 narkotik alverçisi uzun müddətə azadlıqdan məhrum edildi... 5

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№12 (3351) 8 Aprel / 2025-ci il | Həftədə 1 dəfə çıxır | Qiyməti: 60 qəpik

# Avtoritetlər haqda tükürpədici faktlar

## Meşəyə aparıb, diri-diri torpağa basdırırdı...



**Sergey Morozovun rəhbərlik etdiyi Gomel qruplaşması Belarusun ən böyük və ən qəddar cinayətkar təşkilatlarından biri hesab olunur. Onların fəaliyyəti 1990-cı illərdə Gomel və ətraf bölgələrdə geniş yayılmışdı.**

Xarici KİV-lərə istinadən bu qruplaşma ilə bağlı araşdırmanı təqdim edirik:

### Qruplaşmanın yaranması və ilk addımları

Sergey Morozov 1967-ci ildə Ukraynanın Luqansk vilayətində anadan olub. Gənclik illərində bir neçə dəfə məhkum olunub: 17 yaşında ağır bədən xəsarətləri yetirməkdən, 18 yaşında oğurluqdan və 20 yaşında davada iştirak etməkdən həbs edilib. Cəzaçəkmə müəssisəsində olarkən, gələcəkdə onun sağ əli olacaq Mixail Matyuşkov ilə tanış olub. 1990-cı illərin əvvəllərində onlar Gomeldə idman klubunda məşğul olurdular və burada qruplaşmanın əsasını qoydular.





### Cinayətkar fəaliyyət və təsir sahələri

Qruplaşma əvvəlcə şəhər bazarlarında ticarətçilərdən, valyuta dəyişənlərdən, taksi sürücülərindən və sahibkarlardan "xərac" yığmaqla məşğul idi. İlkin mərhələdə ödəməkdən imtina edənlərə qarşı təzyiqlər nisbətən yüngül idi, məsələn, avtomobillərinin şüşələri sındırılırdı. Lakin sonradan bu təzyiqlər daha qəddar formalar aldı: əmlakın məhv edilməsi, avtomobillərin oğurlanması və geri qaytarılması üçün pul tələb edilməsi kimi. Şikayət edənlər isə ikiqat cəza ilə üzləşirdilər.

### Rəqiblərlə mübarizə və qruplaşmanın güclənməsi

1990-cı illərin ortalarında Morozovun qruplaşması digər cinayətkar qruplarla, xüsusilə "pojarni" adlı qrupla münaqişəyə girdi. 1996-cı ildə "pojarni" liderləri meşəyə aparılaraq, ya diri-diri torpağa basdırılmaq, ya da ödəniş etmək seçimi qarşısında qoyuldular. Nəticədə, onlar Morozovun hakimiyyətini qəbul edərək, gəlirlərinin bir hissəsini ona verməyə razı oldular.

### Hüquq-mühafizə orqanları ilə əlaqələr və qorunma

Qruplaşma hüquq-mühafizə orqanlarında yüksək səviyyəli əlaqələrə malik idi. Gomel UVD-nin cinayət-axtarış şöbəsinin rəisi polkovnik Nikolay Losev və Gomel vilayət prokurorluğunun təşkil olunmuş cinayətkarlıqla mübarizə üzrə şöbəsinin prokuroru Anatoliy Susolkin qruplaşmanın fəaliyyətini ört-basdır edirdilər. Onlar aylıq 2-10 min dollar arasında rüşvət alırdılar.

### Qruplaşmanın dağılması və məhkəmə prosesi

2004-cü ildə hüquq-mühafizə orqanları Morozovun qruplaşmasına qarşı genişmiqyaslı əməliyyat keçirdi. Nəticədə, 46 nəfər həbs olundu və onlara qarşı 100-dən çox cinayət epizodu üzrə ittiham irəli sürüldü.

2006-cı ilin dekabrında Sergey Morozov, İqor Dançenko və Valeri Qorbatıy ölüm cəzasına məhkum edildilər və 2008-ci ildə hökm icra olundu. Digər üzvlər isə 2 ildən 20 ilə qədər həbs cəzası aldılar.

Sergey Morozovun rəhbərlik etdiyi Gomel qruplaşması Belarusun ən böyük və ən qəddar cinayətkar təşkilatlarından biri kimi tarixə düşüb. Onların fəaliyyəti nəticəsində çox sayda insan həyatını itirib və ya zərər çəkib.

Hüquq-mühafizə orqanlarının uğurlu əməliyyatları sayəsində bu qruplaşma zərərsizləşdirilib və üzvləri ədalət qarşısında cavab veriblər.

---

*Əyləncə səhifəsi*

## Dünyanın ən zəngin qadınları...



**Forbes-un milyarderlər siyahısı açıqlanıb və dünyanın ən varlı 10 qadınının adları müəyyən edilib. Bu siyahıda ilk 10-luqda olan qadınların 9-u sərvətlərini miras yolu ilə əldə edib. Lakin birinci yerdə olan şəxs isə Alis Valton olub:**

1. Alise Valton; Xalis sərvət: 101 milyard dollar. Yaş: 75
2. Fransuaza Betankur Meyers; Xalis sərvət: 81,6 milyard dollar. Yaş: 71
3. Culia Koç; Xalis sərvət: 74,2 milyard dollar. Yaş: 62
4. Jaklin Mars; Xalis sərvət: 42,6 milyard dollar. Yaş: 85
5. Rafaela Aponte-Diamant; Xalis sərvət: 37,7 milyard dollar. Yaş: 80
6. Savitri Jindal; Xalis sərvət: 35,5 milyard dollar. Yaş: 75
7. Abiqail Conson; Xalis sərvət: 32,7 milyard dollar. Yaş: 63
8. Miriam Adelson; Xalis sərvət: 32,1 milyard dollar. Yaş: 79
9. Marilin Simons; Xalis sərvət: 31 milyard dollar. Yaş: 74
10. Melinda Frenç Gets; Xalis sərvət: 30,4 milyard dollar. Yaş: 60

Bu siyahı, dünya üzrə qadın milyarderlərin sayının artdığını və onların müxtəlif sahələrdə sərvət topladıqlarını göstərir.

## Nə üçün pul dünyanı idarə edir?

### Al Kaponenin pul və hakimiyyət haqqında dedikləri...

**Al Kapone mütəşəkkil cinayətkarlıq tarixinin ən tanınmış simalarından biridir. Onun adı güc, pul və mübahisəli həyat fəlsəfəsi ilə əlaqələndirilir.**

Xarici KİV-lər xəbər verir ki, kriminal keçmişinə baxmayaraq, onun pula baxışları praqmatizm, hiyləgərlik və kəskinliklə dolu idi. Al Kaponedən onun sərvətə münasibətini və maliyyə dünyası anlayışını ortaya qoyan 7 sitat təqdim edirik:

- Mən yaşamaq üçün pul qazanıram, pul qazanmaq üçün yaşamıram.
- Pul hər şeyi idarə edir, bunu dərk edən isə pulu idarə edir.
- Pulun nə qədər olduğu deyil, onu necə xərclədiyin önəmlidir.
- Ən sadiq insanlar sizin pulunuzdan asılı olanlardır.
- Pul dostlar gətirir, amma onun olmaması onların əslində kim olduğunu göstərir.
- Bir xoş sözlə, pulla daha çox şey əldə edə bilərsən, nəinki xoş sözlə əldə etdiyinizdən.
- Pulun gücü ondadır ki, o, əks halda bağlanacaq qapıları açır.

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

HR Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.

# Qarabağ veteranı nazirliyi məhkəmədə uddu, amma...



## Müdafiə Nazirliyi məhkəmə qərarını yerinə yetirməməkdə israrlıdır


Azərbaycan Respublikası
Şəki İnzibati Məhkəməsi

AZ 5500, Şəki şəhəri S.Mümtaz küçəsi 318, www.courts.gov.az/az/shekiadministrative. Telefon: 024-244-32-13 E-poçt: contact@shekiadministrativecourt.gov.az

04 fevral 2025-ci il — № 2-1(116)-1347/2024

**Azərbaycan Respublikası Müdafiə Nazirliyinə**
*Ünvan: Bakı şəhəri, Parlament prospekti 3*

**Surəti:** (məlumat üçün) **Novruzov Şahin Şahı oğluna**
*Ünvan: Ağsu rayonu, Ləngəbiz kəndi*

Şəki İnzibati Məhkəməsinin 02 iyul 2024-cü il tarixli 2-1(116)-1347/2024 saylı qərarı qanuni qüvvəyə mindiyinə görə icra edilməsi üçün Sizə göndərilir.

Bildirilir ki, icraya yönəldilmiş məhkəmə qərarları qanunvericilikdə nəzərdə tutulmuş müddətdə icra olunmadıqda məcburi icraya yönəldilir.

Belə ki, Azərbaycan Resoublikası İnzibati Prosessual Məcəllənin 79.1-ci maddəsinə əsasən məhkəmə qərarı qanuni qüvvəyə mindikdən sonra icra olunur.

Həmin məcəllənin 79.2-ci maddəsinə əsasən məhkəmə qərarının borclu tərəfindən könüllü şəkildə icra olunmadığı hallarda, həmin qərarın icrası bu Məcəllənin müvafiq fəslində və "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada həyata keçirilir.

Eyni zamanda Sizə izah olunur ki, qərar icra olunmadığı halda Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin tələblərinə uyğun olaraq 50.000 manatadək cərimə oluna bilərsiniz.

Qeyd olunanlara əsasən, Azərbaycan Respublikası Şəki İnzibati Məhkəməsinin 02.07.2024-cü il tarixli 2-1(116)-1347/2024 saylı qərarının icrası üçün 20 gün müddət müəyyən edilir və həmin müddət ərzində məsələ ilə bağlı müvafiq tədbir görülməsi və məhkəməyə məlumat verilməsi Sizdən tələb olunur.

Qoşma: 1-ci ünvana - 7 vərəq (qərarın surəti).

**Hakim Vüqar Musayev**

Sənədin elektron imzalanma tarixi: 04.02.2025
Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı: Hakim - Vüqar Musayev
Məhkəmənin adı: Şəki İnzibati Məhkəməsi
Sənədin elektron yüklənmə ünvanı:


ilə bağlı həmin orqana qarşı iddialara, habelə belə hüquq münasibətlərinin yaranması ilə əlaqədar mübahisələrə iddiaçının xidməti yaşayış sahəsinin olduğu yerin, belə yaşayış sahəsinin olmadığı hallarda yaşayış yerinin, bu halların heç birinin olmadığı təqdirdə isə ilkin inzibati aktı qəbul etmiş inzibati orqanın (cavabdehin) yerləşdiyi yerin məhkəməsi tərəfindən baxılır.

34.1-ci maddəsinə əsasən, öhdəliyin icrası haqqında iddia vasitəsi ilə iddiaçı cavabdehdən inzibati aktın qəbul edilməsi ilə bağlı olmayan (inzibati aktın qəbul edilməsinə yönəlməyən) müəyyən hərəkətlərin edilməsini tələb edə bilər.

69.5-ci maddəsinə əsasən, məhkəmə qərarının nəticəvi hissəsində, məhkəmənin gəldiyi nəticə, prosessual xərclər və həmin qərara qarşı hüquqi müdafiə vasitələrindən istifadə qaydası və müddəti göstərilməlidir.

İş üzrə icraata dair prosessual xərclər məsələsi İPM-in 110.1-ci maddəsinə əsasən həll olunur. Dövlət rüsumu haqqında Qanununun 9.1.12-ci maddəsinə əsasən, inzibati hüquq münasibətlərindən əmələ gələn işlər üzrə - vətəndaş, inzibati orqanlar və vəzifəli şəxslər dövlət rüsumu ödəməkdən azad olunurlar.

Nəticəvi hissə:

Məhkəmə yuxarıda göstərilənlərə əsasən və Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 68, 69, 75-ci, 78-ci və 85-ci maddələrini rəhbər tutaraq

qərara aldı:

İddia təmin edilir.

Cavabdeh Azərbaycan Respublikası Müdafiə Nazirliyinin üzərinə iddiaçı Novruzov Şahin Şahı oğluna "Müharibə veteranı" adının və vəsiqəsinin verilməsi öhdəliyi qoyulur.

Qərardan onun rəsmi təqdim edildiyi vaxtdan tərəflər 30 (otuz) gün müddətində Şəki İnzibati Məhkəməsi vasitəsi (Şəki şəhəri, S.Mümtaz küçəsi, 318) ilə Şəki Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasına apellyasiya şikayəti verə bilərlər.

Qərar onun rəsmi təqdim edildiyi vaxtdan 30 (otuz) gün müddətində apellyasiya şikayəti verilmədiyi və ya proses iştirakçıları tərəfindən şikayətin geri götürüldüyü hallarda məhkəmə qərarı onun təqdim olunduğu gündən 30 (otuz) gün keçdikdən sonra qanuni qüvvəyə minir.

Hakim Vüqar Musayev.

Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı: Hakim - Vüqar Musayev
Məhkəmənin adı: Şəki İnzibati Məhkəməsi
Sənədin elektron yüklənmə ünvanı:
S/N: 014
7 / 7

Ağsu rayonu, Ləngəbiz kənd sakini Novruzov Şahin Şahı oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Prezident İlham Əliyevə, Ədliyyə naziri Fərid Əhmədova və İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Səbinə Əliyevaya müraciət edən şikayətçinin məktubunu olduğu kimi dərc edirik:

**"Hörmətli Prezident!**
**Hörmətli Nazir!**
**Hörmətli Səbinə xanım!**

Mətbuat vasitəsi ilə Sizə müraciət edirək bildirirəm ki, mən Novruzov Şahin Şahı oğlu, Birinci Qarabağ Müharibəsinin iştirakçısıyam. 1992-ci ilin sentyabr ayında Ağdərə rayonunun Çıldıran kəndi uğrunda gedən döyüşlərdə yaralanmışam. Bir müddət hərbi hospitalda müalicə olunmuşam və sağaldıqdan sonra yenidən xidmət etdiyim hərbi hissəyə qayıtmışam.

1994-cü ilin yanvar ayının 21-də Murovdağ istiqamətində gedən döyüşlərdə ayaqlarımı don vurması nəticəsində 230 nömrəli hərbi hospitala göndərilmişəm. Hər iki ayağımın I və II dərəcəli don vurması nəticəsində uzun müddət müxtəlif hərbi hospitallarda və xəstəxanalarda müalicələr almışam və bu xəstəliklə bağlı ikinci qrup müharibə əlili olmuşam.

Qarabağın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etsəm də, "müharibə veteran" adını ala bilmədiyim üçün Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Aparatı nəzdində fəaliyyət göstərən «Veteran adlarının və müvafiq vəsiqələrinin verilməsi üzrə Komissiya»ya müraciət etmişəm. Lakin nazirlikdən 06.12.2023-cü il tarixli imtina məktubu verilmişdir. Buna görə də mən iddiaçı qismində cavabdeh - Azərbaycan Respublikası Müdafiə Nazirliyinə qarşı Şəki İnibati Məhkəməsinə iddia ərizəsi ilə müraciət edərək, "müharibə veteran" adı və müvafiq vəsiqəsinin verilməsi öhdəliyinin cavabdehin üzərinə qoyulması barədə qərar qəbul edilməsini xahiş etmişdim.

Şəki İnzibati Məhkəməsinin (hakim Vüqar Musayev) 02 iyul 2024-cü il tarixli 2-1(116)-1347/2024 nömrəli qərarı ilə mənə "müharibə veteranı" adı və vəsiqəsinin verilməsi öhdəliyi Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin üzərinə qoyulmuş (cavabdehin apellyasiya və kassasiya şikayəti təmin edilməmiş və qərar qanuni qüvvəsini almışdır) və icra edilməsi üçün 04 fevral 2025-ci il tarixdə qərarla birlikdə Müdafiə Nazirliyinə (Bakı şəhəri, Parlament prospekti 3) göndərilmişdir. Şəki İnzibati Məhkəməsi tərəfindən göndərilmiş bu məktubda qeyd edilmişdir ki, 02 iyul 2024-cü il tarixli 2-1(116)-1347/2024 saylı qərarın icra edilməsi üçün 20 gün müddət müəyyən edilmişdir. Həmin müddət ərzində müvafiq tədbir görülməli və məhkəməyə məlumat verilməlidir. Qərar icra olunmadığı halda Azərbaycan Respublikasının İnzibati Prosesual Məcəlləsinin tələblərinə uyğun olaraq 50.000 (əlli min) manat cərimə olunacaq.

Şəki İnzibati Məhkəməsi tərəfindən bu məktub Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə 04 fevral 2025-ci il tarixdə göndərilib. Artıq iki aydır ki, bu məktub Müdafiə Nazirliyinə göndərilsə də, dövlətin adından verilmiş qərarı qanunsuz olaraq icra edilmir. Bununla da Müdafiə Nazirliyi tərəfindən Azərbaycan Respublikasının qanunları ilə qorunan hüquqlarım pozulur.

Məhkəmənin qəbul etdiyi qərarlar dövlətin adından çıxarılır və onların icrası məcburidir. Bununla bağlı Azərbaycan Respublikasının Konstitusiyasında qeyd edilib. Lakin Müdafiə Nazirliyi qərarı icra etmir. Bu necə ola bilər ki, dövlətin adından çıxarılmış qərarın icra edilməsi dövlət qurumu tərəfindən təmin edilməsin?!

**Hörmətli Prezident!**
**Hörmətli Nazir!**
**Hörmətli Səbinə xanım!**

Sizdən xahiş edirəm ki, mənim hüquqlarımın bərpa olunmasına və dövlətin adından çıxarılmış Şəki İnzibati Məhkəməsinin 02 iyul 2024-cü il tarixli, 2-1(116)-1347/2024 saylı qərarın icra edilməsinə köməklik edəsiniz".

**Hazırladı: Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# Sumqayıt Bələdiyyəsi "qaz vurub, qazan doldurur"

## Hətta Bələdiyyə mülkiyyətində olmayan torpaqlar da qanunsuz yollarla satılır

**Sumqayıt şəhər sakinləri Sədiyev Şahin Zeynal oğlu, Baxşəliyev Əkbər Əbdüləli oğlu, Gülməmmədov Sərxan Rizvan oğlu və Əhmədov Ceyhun tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçilər bilirlər ki, Sumqayıt Şəhər Bələdiyyəsinin qanunsuz əməlləri bitmək bilmir:**

"Sumqayıt Bələdiyyəsinin qanunsuz əməllərindən şəhər sakinləri boğaza yığılsa da, çıxış yolu tapa bilmir. Bir müddət əvvəl Yaşma sakinləri bu əməllərdən bezib, etiraz etmək üçün magistral yolunu da bağlamışdılar. Məsələni sakitləşdirib, bir müddət gözlədikdən sonra "Yaşıl dərə" deyilən əraziyə hücum etmişdilər. Hazırda isə 76-cı məhəllə ərazisində qanunsuzluqlar davam etməkdədir.

Sumqayıt Şəhər Bələdiyyəsinin sədri və bəzi əməkdaşları ilə əlbir olan torpaq alveri ilə məşğul olan bir qrup şəxs çıxarış və ya sənəd ala bilməyən ərazilərə çöküb, torpaqları sahiblərinin əlindən alıb satırlar. Razılaşmayan sakinlərə isə, bu tapşırığın "yuxarıdan gəldiyini" söyləyərək, yeni Sumqayıt şəhərinin yüksək vəzifəli şəxslərinin adını çəkərək, onları qorxutmağa çalışırlar.

Öz torpaqlarını qanunsuzluğa qurban vermək istəməyən sakinlərə rast gələndə isə əraziyə özlərini qazi və veteran kimi təqdim edən bir qrup şəxsi göndərib, onları münaqişəyə çəkir, hədə-qorxu gəlirlər. Bu üsulla zərər görənlərin içində biz 5 qonşu da varıq.




Belə ki, Sumqayıt şəhər 76-cı məhəllə ərazisində mənim və 4 qonşumun sahibliyində və istifadəsində olan torpaq sahələri Sumqayıt Şəhər Bələdiyyəsinin sədri və bir neçə əməkdaşının havadarlığı ilə bu ilin yanvar ayının əvvəllərindən bir qrup şəxs tərəfindən zəbt edilib. Bizə heç bir xəbərdarlıq edilmədən, axşam saatlarında əraziyə texnika gətirilərək hasarlarımız dağılmış və bizə aid tikinti materialları məhv edilərək, yaxınlıqdakı gölə tökülmüşdür. Ərazi "sənaye, nəqliyyat və rabitə" tipli olduğundan, ora çıxarış almaq mümkün deyil və biz 2013-cü ildən bu ilin axırına qədər də torpaq vergisini ödəmişik.

Bütün aidiyyəti qurumlara müraciət etdik və bizə qarşı tərəf əlində 3500 kv.m-ə Sumqayıt Bələdiyyəsi tərəfindən verilmiş icarə müqaviləsi olduğu bildirildi. Amma nə qədər çalışsaq da, o icarə müqaviləsini bizə təqdim edən olmadı. Vəkilimiz vasitəsi ilə Sumqayıt Şəhər İnzibati Məhkəməsinə müraciət etsək də, qarşı tərəf Bələdiyyənin havadarlığı ilə, heç bir icazəsi olmadan tikinti aparmağa davam etdi və aidiyyəti qurumlar da buna göz yumur.

Biz vəkilimizlə əlavə bir müqavilə də bağladıqdan və xeyli çalışdıqdan sonra qarşı tərəfə verilən icarə müqaviləsinin bir surətini əldə edə bildik. Həmin müqaviləni araşdırdıqdan sonra məlum oldu ki, qarşı tərəfə təqdim edilən bu icarə müqaviləsi qanunsuzdur. Belə ki, icarə müqaviləsi bağlanarkən torpaq sahələrimiz hərraca çıxarılmayıb və heç bir müsabiqə olmayıb. Daha sonra bizə məlum oldu ki, bizim torpaq sahələrimizin yerləşdiyi ərazi heç Bələdiyyənin mülkiyyətində deyil. Bir sözlə, bir neçə qurum da bu qanunsuz müqaviləni görsə də, susaraq, bizim torpaq sahələrinin zəbt edilərək tikinti aparılmasına kömək etdilər. Bu qanunsuzluq hələ də davam etməsinə və hələ də tikinti aparılmasına baxmayaraq, hələ də bizə yardım edə bilən qurum axtarışındayıq. Onu da bildirim ki, bir dəfə gəlib reyd keçirdilər. Şikayət olunan ərazi qalıb, kasıbın olan bir az torpaq sahəsini əllərindən alıb, hasarı dağıdıblar. Guya, yoxlanış keçirib, səhvləri tapıblar. Bu da bunların işi. Obyektlər olan ərazilərə isə heç toxunmayıblar".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları çəkilən qurumların və şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

**ELAN**

**Camalova Səkinə Məmməd qızına məxsus Yeni Yasamal rayonu, Əsəd Əhmədov küçəsi 24 B-də yerləşən 1407 saylı mənzilin müqaviləsi itdiyi üçün etibarsız sayılır.**

# ADP-dən Türkiyədə keçirilən mitinqlərə reaksiya

## "Bu olayların qardaş ölkənin daxili sabitliyinə mənfi təsir göstərməsindən narahatıq"

### "Türkiyənin bu təlatümləri geridə buraxaraq, ölkənin vahidliyini, bütövlüyünü, vətəndaş həmrəyliyini təmin edə biləcəyinə inanırıq"

Dünən ADP İdarə Heyətinin ölkə və beynəlxalaq aləmdə baş verən ictimai-siyasi proseslərə dair növbəti toplantısı keçirilib. Partiyanın mətbuat xidmətindən "Hürriyyət"ə verilən məlumata əsasən, toplantı iştirakçıları ilk növbədə Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclasının nəticələri barədə fikir mübadiləsi aparıb və bu tədbirin enerji təhlükəsizliyi ilə enerji keçidi arasında uzlaşmanın gücləndirilməsi baxımından önəmli əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Qeyd olunub ki, Avropa Komissiyasının dəstəklədiyi, 12 ölkənin qatıldığı bu geniş tədbir enerji təhlükəsizliyi sahəsində yanaşmaların formalaşmasında, həmin məsələlərin həllində və birgə səylərin əlaqələndirilməsində mühüm rol oynamaqla, Azərbaycanın milli maraqlarının beynəlxalq səviyyədə təmin edilməsində də öz töhfəsini verəcək.

İdarə Heyəti Almaniya prezidenti F.V.Ştaynmayerin Azərbaycana səfərinin yekunlarına münasibət bildirib və bu səfərin Almaniya ilə Azərbaycan arasında ikili əlaqələrin yeni müstəviyə daxil olması, alman texnologiyasının sənaye və kənd təsərrüfatı sahələrinə tətbiq edilməsi, Almaniyanın vasitəçiliyi ilə Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinin dərinləşməsi, ölkəmizin bu birliyə iqtisadi və siyasi cəhətdən inteqrasiya olunması baxımından mühüm rol oynayacağına əminliyini ifadə edib.

İdarə Heyəti qardaş Türkiyədə baş verən son olaylara da münasibət bildirib və İstanbul Böyükşəhər Bələdiyyə başqanı Əkrəm İmamoğlunun həbsindən



sonra ana müxalifətin başlatdığı və getdikcə geniş miqyas alan etiraz aksiyalarının şiddətlənməsindən və bu olayların Türkiyənin daxili sabitliyinə mənfi təsir göstərməsindən narahat olduğunu diqqətə çatdırıb. Partiya yetkililəri qardaş ölkəyə xarici güclər vasitəsi ilə təsirlərin artdığı bir zamanda daxili iğtişaşlara yol açan bu etiraz aksiyalarının ölkənin iqtidarı tərəfindən səbrlə, zorakılığa yol vermədən izlənildiyini, Ana Yasa kurallarına, demokratik tələblərə uyğun nizamlanması üçün göstərdiyi cəhdləri təqdir edib və Türkiyənin bu təlatümləri geridə buraxaraq ölkənin vahidliyini, bütövlüyünü, vətəndaş həmrəyliyini təmin edə biləcəyinə inamını ifadə edib.



İdarə Heyəti son günlər ABŞ-da Tramp administrasiyasına, onun əvvəlki dünya nizamı ilə uyğun gəlməyən, başqa ölkələri təhdid edən siyasətinə qarşı başlanan etiraz aksiyalarına münasibət bildirib və bu etirazların arxasında D.Trampın Birləşmiş Ştatların əhalisinin iradəsini düzgün ifadə edə bilməməsi faktının durduğunu qeyd edib.

İdarə Heyəti Azərbaycanla Ermənistan arasında sülh sazişinin bağlanması məsələsinin irəli sürülən şərtlər daxilində həllinin tapması üçün hər iki ölkə rəhbərinin göstərdiyi səyləri müsbət dəyərləndirib və iki əsas şərt üzrə - Ermənistanın konstitusiyasındakı ərazi iddalarının geri götürülməsi və ATƏT-in Minsk Qrupunun ləğv edilməsi üçün real addım atılmasının Paşinyan hakimiyyətinin göstərəcəyi qətiyyətdən asılı olduğunu bildirib. ADP öz növbəsində sülh sazişinin bağlanmasına əngəl olan və faktiki olaraq amorf bir təşkilata çevrilən Minsk Qrupunun buraxılması üçün ATƏT-in özünün bu barədə qərar verməsinin vacibliyini diqqətə çatdırıb.

İdarə Heyəti İran prezidenti M.Pezeşkianın Azərbaycana gözlənilən səfəri barədə fikir mübadiləsi aparıb və bu səfərin İranla Azərbaycan arasında zaman-zaman qarşı ölkənin yersiz ambisiyaları nəticəsində korlanan münasibətlərin nizama salınmasında, ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan sağlam qonşuluq münasibətlərinin yeni mərhələyə daxil olmasında töhfə olacağına ümidvar olduğunu bildirib.

İdarə Heyəti həbsdə olan Müsavat Partiyasının üzvü Tofiq Yaqublunun uzunmüddətli aclıq aksiyasına başlamasından narahatçılıq ifadə edib, ölkə rəhbərliyini humanistlik göstərərək siyasi motivlərlə həbsdə olan şəxsləri, o cümlədən Tofiq Yaqublunu azad etməyə çağırıb.

**Hazırladı: KƏNAN**

---



Eldar MƏMMƏDBƏYLİ

# Doğma Türkiyədə baş verənlər...

### Ərdoğan məzlumları, əzilənləri qoruya bilmək bacarığına malik olan dünya liderləri arasında öz möhtəşəm yerini tuta bilmişdir

**Son vaxtlar Novruz bayramı tətilində bir yazı yazmağı adət etmişəm. Bu il mövzu seçilməmişdi. Builki bayram dönəmində baş verən hadisələr dünyanı elə qarışdırdı ki, nəsə yazacağım barədə düşünmürdüm. Problemlər məni dərindən narahat edirdi. Doğma Türkiyədə baş verən "İmamoğlu məsələsi" beynimizdə axırıncı neyronu partlatdı.**

Amerika Birləşmiş Ştatları (ABŞ) kimi dünyanı idarə edən nəhəng dövlətin prezident seçkisi zamanı qoca və yorulmuş prezident C.Bayden və onunla müqayisədə elə bir yüksək üstünlüyə malik olmayan D.Tramp arasında ciddi mübarizə gedirdi. Qəfildən atılan güllə Trampın qulağını cızıb keçdi və o, "böyük qəhrəmana" çevrilərək, qalib gəldi. Əgər dünyanın ortaya qoyulan yeni düzəninin belə adamların əlində olması məsələsi olmasaydı, mən belə əhvalata heç fikir verməzdim. Amma dünyanın ən aparıcı dövləti olan ABŞ-da layiqli prezident seçməyə bir nəfər namizəd tapılmırsa, vay bu dünyanın halına.

Azərbaycanın taleyində həlledici əhəmiyyət daşıyan bir məsələdən - qardaş Türkiyədə baş verən hadisələrə görə keçirdiyi üzüntülü haldan sonra özüm üçün belə bir nəticəyə gəldim: R.T.Ərdoğan türk dünyası konteksində Allah tərəfindən göndərilmiş bir liderdir. Türkiyə Respublikası tarixində ulu Atatürkdən sonra, dünya səviyyəsində xeyli sayda başqanlar olmuşdur. Lakin onların heç biri sözün tam mənasında Ərdoğanın səviyyəsinə yüksələ bilməmişdir. Planetimizin ən mürəkkəb və qalmaqallı sahəsində yerləşən və dünyanı idarə edəcək bir millətin indiki dövrdə başqanı olmaq, özü də ləyaqətli başqanı olmaq, missiyası ağlagəlməz dərəcədə çətin, mürəkkəb və təhlükəli məsələdir. Ərdoğan belə mürəkkəb problemlər kompozisiyasının içində böyük ustalıqla, təmkinlə, yeri gələndə cəsarət, risk və mərdliklə bu işlərin öhdəsindən gələn bir başqandır. O, özünü, ailəsini, qeyrətini, namusunu, millətini, türk dünyasını, məzlumları, əzilənləri qoruya bilmək bacarığına malik olan bir lider kimi dünya liderləri arasında öz möhtəşəm yerini tuta bilmişdir.

Mən hesab edirəm ki, bu nəhəng insan rus imperiyası kimi şər bir dövlətin qarşısında böyük əzmlə duruş gətirdi, nəinki geri çəkildi, əksinə, əliyalın, silahsız halda nüvə dövlətinin üstünə getdi. Ukraynanı da açıqca hər cür müdafiə etdi. Azərbaycanın indiki kimi ayaq üstə qalmasındakı əvəzsiz xidməti də necə möhtəşəmdir...

Bütün bunları nəzərə alaraq, öz yaşadığım dönəmdə çoxlu rəhbərlər görmüş, eşitmiş, onların haqqında oxumuş bir ziyalı kimi öz fikirlərimi bildirmək istəyirəm. Əvvəla, dünyanı idarə etmək potensialına malik olan türk xalqı kimi seçəcəksə, o lideri biz də sevəcəyik, qəbul edəcəyik. Digər tərəfdən, Türkiyə Respublikası və onun prezidenti digər türk dövlətləri üçün də bir örnək, bir nümunə, bir simvoldur. Mən istəyirəm ki, Türkiyədə öz qabiliyyətinə, ağlına, təfəkkürünə görə millətin içərisində olan adamlar seçkilərdə Ərdoğanla yarışsınlar və çox yox, azacıq üstünlüklə Ərdoğan qalib gəlsin.

Hesab edirəm ki, bu nəhəng başqan bu problemlərin öhdəsindən də ləyaqətlə gələcək, İmamoğlunun günahı varsa da onu bağışlayacaq və şərəflə yeni seçkidə ona və digər rəqiblərinə meydan verəcək. Çünki Ərdoğan dünya liderləri içərisində digər keyfiyyətlərindən başqa, həm də Allaha inanan və ona daha yaxın olan bir insandır.



Eldəniz QULİYEV

# Vay halımıza...

Qınamayın...

Hərdən mənə elə gəlir ki, bu xalq ağzının yolunu itirib və çörəyi qulağına yeyir. Yəni qulağına yeməsəydi, bu qədər yalan-palanları, bu qədər haqsızlıqları qulaqardına vurmazdı...

"Xalqın gözü tərəzidi" məsəli də "xalastoy" güllə kimi bir şeydi... Belə olmasaydı, daha doğrusu, xalqın gözü həqiqətən tərəzi olsaydı, gözünün qabağındaca baş verən və onu barmağına dolayan qaravəlli siyasətinə, hakimiyyətin qapazlı-təpikli idarəçiliyinə göz yummazdı... Məncə, ən yaxşı halda və təəssüflər ki, bu gün xalqın gözünü çaş, ya çəpgöz tərəziyə bənzətmək daha düzgündür!..

Gəlin səmimi olaq: ay, nə bilim, biz Koroğlu nəsliyik, Babəkin vuran qolu, Qaçaq Nəbinin eşmə bığıyıq və sair və ilaxır... Pafosdu, şüardı, şarjdı, üfürülmüş şardı, patetikadı, psevdo-patriotluqdu...

Əks-təqdirdə, yəni bizlər deyilən kimi, həqiqətən Koroğlunun nəsli, Babəkin qolu, Nəbinin bığı olsaydıq...(üzr istəyirəm) it günündə yaşamazdıq; heç bu qədər haqqı-hüququ tapdanan vətəndaşımız, bu qədər siyasi, vicdan məhbusumuz da olmazdı. Olmazdı! Bu qədər günahsız insanın təqiblərə, təhdid və təhqirlərə məruz qalmasına heykəl soyuqqanlığı ilə baxıb da susuruqsa, "öz cəzandı, çək, Balaş!" iradını qəbul etməliyik.

Demək istəyirəm ki, gərək heç kəs, ələlxüsus, əli hər yerdən üzülmüş, biçarə qardaş-bacılarımız, övladlarımız, ata-analarımız "olacağa çarə yoxdu" deyibən, talelərinə biganə qalmamalıdır... Biganəlik insanın özünə qarşı törətdiyi cinayətlərdən ən ağırıdır!..

Elə anlamlar və elə dəyərlər var ki, özünə, ailəsinə, məmləkətinə, nəhayət öz xalqına hörmət edən insan o dəyərləri göz bəbəyi kimi qorumağa borcludur; çünki onlar yox olsa, itirilsə bir də tapılmayacaq, qazanılmayacaq... Misal üçün:

Ləyaqət hissi.

Bu gün ölkədə hökm sürən mənəvi-əxlaqi mühüt və analoqu olmayan dərəbəyliklər bunu bütün çılpaqlığı ilə ortaya qoyur... Ki, ləyaqətsiz yaşamaq göydəki buludlara başla mismar vurmaq cəhdini xatırladır...

Dəyərlərin aşınmaya məruz qalması faciəyə gedən yolun başlanğıcı, yaxud sonun əvvəlidir, vəssalam və istəsəniz, hətta şüttəmamdır!..

Daha sonra, sağlamlığımızı qorumalıyıq. Həm fizioloji, həm də ictimai-mental və ruhi sağlamlığı (lap dəqiqi - saflığı) nəzərdə tuturam.

Ölkədə xəstəliklə mübarizədən daha çox, xəstəlikdən pulpara qazanmağa üstünlük verən idbar səhiyyə sistemi formalaşıbsa, habelə cəmiyyətin sağlam inkişafına əngəl törədən və onun rəsmi yalanlar, riyakarlıq, saxtakarlıqlar içərisində çaşıb-azmasını hədəfləyən Dövlət idarəçilik üsul-idarəsi mövcuddursa... deməli, bizlər, öz canımızı, canımızla birgə öz taleyimizi, məhz özümüz qorumalıyıq. Bəzən saman çöpü də böyük əhəmiyyət kəsb edir.

Bu sırada təhsil sistemi olduqca vacib və həyati əhəmiyyətə malikdir.

Çünki istəsək də, istəməsək də, fundamental təhsil sistemi savadla yanaşı, özündə təlim və tərbiyə meyarlarının da ehtiva etməlidir. Etmirsə, təbii olaraq, təhsilin keyfiyyət səviyyəsi aşağı düşür və o, ən yaxşı halda, qarşısında rəqəm yazılmayan sıfıra çevrilir!..

Təhsilsiz insan bədbəxt, təhsilsiz məmləkət isə xaraba qalar!.. Bu, aforizmi yox, çox acı bir həqiqətdir.

Əslində, insan həyatı zənn etdiyimizdən qat-qat qısa və fanidir. Doğuldu - Yaşadı - Öldü! Bu üç kəlmə, istisnasız olaraq bənni insan övladlarının hamısına şamil edilən ən qısa tərcümeyi-haldır.

Əslində, ləyaqət və şərəflə yaşamaq imkanı, adama İNSAN kimi ölmək haqqı qazanmaq üçün verilir!.. Və hər birimiz, sadədən də sadə olan bu İlahi həqiqəti dərk etmək zorundayıq.

Kim bilir, bəlkə də köks dolusu çəkdiyimiz "Ah"-ların içimizdəki dərdlərdən daha artıq və daha ağır olmasının əsas səbəbi elə yuxarıda qeyd edilənlərdi?!..

Etiraf eləyirəm: mən bu yaşımda hələ də başa düşə bilməmişəm ki, görəsən niyə və səbəbdən bizlər rahat çarpayımızdan daha çox, fil qulağında yatmağa üstünlük veririk. Hələ də anlayıb dərk edə bilməmişəm ki, bizlər nədən ayağımızı basdalayanda daha bərk qışqırıb- bağırırıq, nəinki haqqımız-hüququmuz tapdalananda?!

Və mənə hələ də çatmır, bu necə anormallıqdı ki, toplumu, cəmiyyəti, milləti bu qədər qıdıqlayasan... vecinə almasın, heç tükü də tərpənməsin... Yəqin bu da bir sirri-xudadır!..

**P.S. Allahım, rəhm elə, bağışla, keç bu millətin günahından - neynəsin, anlamır, görmür, eşitmir, dili sözünə baxmır, yazıqdı...**

# Xaçmazda müəmmalı qətl olayı

## Yaşlı qadının ölümünü boynuna alan şəxs qıs müddət sonra necə sərbəst qaldı?!

### Rayon sakini qətli heç bir suçu olmayan oğlunun üstünə atdıqlarını iddia edir; "Polis evimə basqın etdi, məhkəmə sənədi istədikdə onlardan biri məni itələyib yıxdı"



**Xaçmaz şəhəri, Yeni Günəşli küçəsi (yeni yaşayış massivi) sakini Dəmirova Süsən-Sünbül Əliskəndər qızı tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi qəzetimiz vasitəilə Prezident İlham Əliyevə, Baş prokuror Kamran Əliyevə, DİN rəhbəri Vilayət Eyvazova müraciət edir. Onu müraciətini olduğu kimi dərc edirik:**

**"Hörmətli Prezident!**
**Hörmətli Cənablar!**

Mən, Dəmirova Süsən-Sünbül Əliskəndər qızı, yazaraq hər birinizdən kömək istəyirəm.

3-cü qrup əliləm, 62 yaşım var. Çox çətin və açılması ancaq sizlərin köməyi ilə mümkün olacaq bir müşkülün içindəyəm.

Qeyd edim ki, 3 övladım var. Övladlarımdan birini, yəni Dəmirov Fərman Seyfulla oğlunu şər-böhtana salıb həbs ediblər.

İlk əvvəl bəlkə də deyərsiniz ki, anadır, övladını müdafiə edir. Xeyr, əsla belə deyil.

Bildirim ki, oğlum fəhlə işi ilə məşğul olurdu...

2023-cü il, oktyabr ayının 31-də Xaçmaz şəhəri, Asif Cəbrayılov küçəsində yaşayan 62 yaşlı Şirinbalayeva Mafizə adlı qadın evində naməlum şəraitdə qətlə yetirilmişdir. Həmin qadının evində Xaçmaz şəhər sakini Əhmədov Şahin Səməd oğlu adlı usta işləyirdi. Qətlə yetirilən Şirinbalayeva Mafizə usta işləyən Şahinlə qonşuluqda yaşayırdı.

2023-cü ilin oktyabr ayında qətllə əlaqədar Xaçmaz rayon polisi və prokurorluğu birgə araşdırma aparılmışlar. Nəticədə, Şirinbalayeva Mafizənin evində işləyən Əhmədov Şahin qətldə şübhəli bilinərək, həbs olunmuşdur. Alınmış ifadələr nəticəsində məlum olmuşdur ki, qadın evində tək yaşayırmış. Onun evinə yalnız usta Əhmədov Şahin gedib-gəlirmiş.

Şahinin istintaqı 3 ay 20 gün çəkdi. Əlbəttə, bu müddətdə ona cinayət işi açılmışdı. Bu səbəbdən də bir müddət həbsdə qaldı. Biraz vaxt keçdikdən sonra eşitdik ki, Şahini buraxıblar. Bundan sonra onun içəridən necə çıxdığına dair söz-söhbətlər yayıldı. Belə ki, ortada "haqq-hesab" məsələsinin olduğunu dedilər...

2024-cü il, fevral ayının 15-də oğlum Dəmirov Fərman Seyfulla oğlu Xaçmaz şəhərində işlədiyi tikinti ərazisində polislər tərəfindən saxlanılıb. Lakin Xaçmaz polisi onu 15.02.2024-cü ildə tutub aparmalarına baxmayaraq, saxlanılma tarixini iki gün sonra - 17.02.2024-cü ilə qeyd ediblər. Həmin iki günü ərzində gəzmədiyimiz polis idarəsi qalmadı, bizə "burada yoxdur" dedilər. Sonradan oğlumu görəndə başa düşdüm ki, niyə gizlədirmişlər. Çünki ona ağır işgəncələr verərək, Şirinbalayeva Mafizənin qətli boynuna qoymağa çalışıblar.



2 gün oğlum evə gəlməyəndə DİN-in 102 xidmətinə də müraciət etmişdim. Onlar da araşdırma apardıqdan sonra bildirdilər ki, oğlunuz polisdə deyil. Yəni ilk gündən özbaşınalıqlar olmuşdur...

Onu da deyim ki, oğlumdan xəbər ala bilməyib, Prokurorluğa da müraciət etdim. Orada dedilər ki, "narahat olmayın, oğlunuz polisə müqavimət göstərib, bu səbəbdən saxlanılıb, buraxacaqlar".

16.02.2024-cü il, saat 18:00 radələrində yenidən Xaçmaz polisinə getdim. Bu dəfə rəis Faiq və müavini Hidayət məni qəbul etdi. Faiq mənə bildirdi ki, rayonun İzmaylovka ərazisində "Al market"də yerləşən bankomatdan pul oğurlanmışdır. Sənin oğlun bu səbəbdən buradadır, müvafiq araşdırmalar və əl izləri götürüldükdən sonra sərbəst buraxacağıq. Bu sözlərlə məni sakitləşdirib, evə göndərdilər.

Özüm xəstə adamam, əsanın köməyi ilə gəzirəm.

17.02.2024-cü il, saat 19:00-da evimizə kütləvi polis basqını oldu. "Sənəd göstərin, daha sonra evimə baxış keçirin", - dedikdə isə polislərdən biri məni itələyib yerə yıxdı. Qonşum qışqıraraq, "o, təzə əməliyyat olunub, anan yaşında qadını yerə yıxmaq nədir?!",- dedi.

Evdə axtarış apardılar, ayaqqabıları bütün palçığın içində idi. Evi elə günə qoydular ki, sanki içəri insan girməmişdi. Bu zaman yenidən soruşdum ki, "ay bala, marketdən oğurlanan pul tapılmadı kı, bura gəlmisiniz?!". O zaman da dedilər ki, "nə pul, sənin oğlun adam öldürüb". İzah etdilər ki, guya, o qadını - Şirinbalayeva Mafizəni mənim oğlum qətlə yetirib. Axı, bu ola bilməzdi. Oğlum qarışqaya belə, ziyan verən olmayıb.

Hazırda məhkəmə gedir. Məhkəmədən qabaq müstəntiq Fərrux Əzimli məndən 10 min manat pul istədi ki, ver, oğlunu apar get. Orda bildirdim ki, vallah, mənim o imkanım yoxdur.

Bu işdə müstəntiq Fərrux Əzimlinin maraqları bitmək bilmir.

**Hörmətli Prezident!**
**Hörmətli Cənablar!**

Onu da qeyd edim ki, müstəntiq kimisə tapıb, bu suçu onun üzərinə yıxmaqda maraqlıdır. Belə ki, qərəzini burdada göstərdi. Oğlum türmədən xəstəxanaya göndərilmişdi. Baş həkim məni çağırıb dedi ki, "ana, müstəntiq Fərrux Əzimli zəng vurub ki, onu dərhal həbsxanaya göndərin". Bu adam qərəzli şəkildə günahı mənim oğlumun üzərinə yıxmaq istəyir.

Prokurorluqda oğluma olmazın işgəncələri verilib, amma ekspertiza yazıb ki, heç nəyi yoxdur. Bu qədər haqsızlığın, böhtanın içində batırıq.

Əvvəl həbs olunan Şahin adlı şəxsin qətli boynuna aldığı haqda kadrlar var. Məhkəmədə hamısı izlənilib. Bu cinayət təzə olanda bütün saytlar, televiziyalar Şahinin cinayəti törətdiyini yazdılar. İndi isə günahı mənim oğlumun üstünə atırlar...

**Hörmətli Prezident!**
**Hörmətli Cənablar!**

Sizdən bir ana kimi xahiş edirəm, müraciətimi cavabsız qoymayın. Mənim oğlum o qadını öldürməyib. Onun 4 uşağı var. İşin yaxşı araşdırılması üçün tapşırıq verin. Günahkar kimdir, yaxud kimlərdir tapılsın. Çox söz-söhbətlər gəzir. Kimisi deyir ki, öz qohumlarının onun evində gözü var idi. Sağikən bir dəfə belə axtarılmayan qadının indi bacısı məhkəmələr gəzir. Gizlin qalan məqamlar çoxdur. İşə baxan hakimlərdən narazılığım hələ ki, yoxdur. Amma narahatam, uşağımın taleyi həll olunur. Bir ömür bədbəxt ola bilər.

O qədər maddələr yazıblar ki, o hərəkətləri edən adam ancaq erməni olmalıdır. Xahiş edirəm, müraciətimi cavabsız qoymayın, qəbulunuza çağırın, əlimdəki sənədlərin hər birini sizlərə təqdim edim".

Jalə FAMİLQIZI

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

# Narkotiklə mübarizəyə əngəl olanlar...

## Bizim ölkəmizdə də hüquq-mühafizə orqanlarına nəzarət gücləndirilməlidir?

**Mart ayının əvvəlində Gürcüstan parlamentində anti-narkotik qanununa sərt cəzalar nəzərədə tutan dəyişikliklərin parlamentə təqdim edilməsi ölkədə ciddi müzakirə mövzusu oldu. Artıq qanunun qəbulu istiqamətində "ilk meyvələr" ola biləcək addımlar da atılıb.**



Məsələn, ötən həftələrdə qonşu ölkədə 10 narkotik alverçisi uzun müddətə azadlıqdan məhrum edildi. Bildirildi ki, 2022-ci ildə adı açıqlanmayan əcnəbi vətəndaş narkotik vasitələrin satışından əldə etdiyi qanunsuz gəlirləri leqallaşdırmaq məqsədi ilə bu alverçiləri təşkilatlandıraraq cinayətkar qrup təşkil edib. Cinayətkar qrupun lideri başqalarının tapşırığı ilə narkotik vasitələrin satıldığı bir neçə gecə kluba və restorana rəhbərlik edib. Yəni narkotki gətirənlə onun satıldığı obyektlərin sahibi əməkdaşlıq edərək, "şərikli narkoticarət"lə məşğul olublar. Məhkəmənin hökmü ilə təqsirləndirilənlərdən ikisi 18 il, qalanları isə 15-16 il müddətinə azadlıqdan məhrum edilib. Onlara məxsus dəyəri 4 milyon laridən çox olan daşınmaz əmlak və nəqliyyat vasitələri də müsadirə edilib.

Ümumiyyətlə, bu kimi faktlar gürcü mətbuatında kifayət qədərdir. Bütün bunlar isə onu deməyə əsas verir ki, Gürcüstan dövləti narkoticarətin qarşısını almaq üçün qarşısına ciddi məqsəd qoyub.

Yeri gəlmişkən, məhkəmə hakimlərindən yeni qanunun bəzi müddəalarına qarşı etiraz edənlər də olub. Bu etirazlar əsasən də alıcıların aldığı narkotikin miqdarı ilə bağlıdır. Hakimlərin fikrincə, narkotikin bir dozasının alınması cinayət sayılmamalıdır və narkotilərin bir dozasını saxlamaq, satın almaq



fundamental insan hüququdur, yəni bu cinayətə görə həbs cəzası konstitusiyaya ziddir.

Amma məsələ ikitərəflidir - bir qram narkotiki alan varsa, onu satan da var. Yəni yeni qanun istifadədən çox, narkotikin alqı-satqısının qarşısını almağa və cinayətkarların cəzalanmasına yönəlib.

Onu da qeyd edək ki, Gürcüstanla eyni vaxtda Qazaxıstanda da narkoticarətə qarşı mübarizə qanununda bəzi dəyişikliklər gündəmə gəldi. Post-sovet ölkəsi olmaq baxımından bizə yaxın olan Gürcüstanla Qazaxıstanın anti-narkotik qanunundakı dəyişikliklər məsələsi ölkəmiz üçün də maraq doğurur. O baxımdan ki, burada həyata keçirilən müsbət dəyişikliklər Azərbaycan üçün də müsbət təcrübə ola bilər. Haqqında söhbət gedən dəyişikliklər ən çox da o tərəfdən cəzbedicidir ki, mübarizənin nişangahında qurbanlardan çox, narkoticarətin başında duranlar, ondan qazanc götürənlər dayanır. Yəni dəyişikliklər bu yöndədir. Hər iki ölkədəki yeniliklərdə iki əsas məqam qabardılır: narkoticarət edənlərə qarşı amansızlıq və gənc nəslin cəzadan çox reabilitasiya - islaha yönəldilməsi.

Məsələn, Gürcüstandakı dəyişikliyə əsasən, bütün növ narkotik vasitələrin satışına görə cəzalar maksimum dərəcədə sərtləşdirilir, yəni narkotik alverçiləri az miqdarda da olsa satdıqlarına görə, onları 20 ilə qədər həbs və ya ömürlük azadlıq məhrumetmə cəzası gözləyir. Amma burada maraqlı nüanslar da var. Məsələn, alverçi narkotiki "qram-qram" satarsa, nə baş verəcək? Yəni özünü istifadəçi kimi qələmə verib, narkotiki "qram-qram" üstündə gəzdirərək satmaq hüquq mühafizə orqanlarının işini çətinə salmayacaqmı?

Əlbəttə, o da anlaşılandır ki, narkotik alverçiləri uzun müddət istifadəçi kimi maskalana bilməz. Amma ümumi mənzərə onu deməyə əsas verir ki, burada da yenə narkoticarətin "kiçik balıqları" hədəfə gəlir, narkotik baronları yenə hədəfdən yayına bilirlər.

Qazaxıstanda diqqəti cəlb edən bir nüans - yeni qanunda "korrupsiya sxemlərinin qarşısını almaq üçün hüquq-mühafizə orqanlarına nəzarətin artırılmasıdır". Deməli, hər zaman olduğu kimi, "ağacı içindən qurd yeyər" prinsipi diqqətdən qaçmamalıdır.

İstər Gürcüstanda, istər Qazaxıstanda baş verənlər rəvac verir ki, biz də probleme yeni nəzər nöqtəsindən baxaq. İlk öncə onu qeyd edək ki, Azərbaycanda yanvarda narkoticarətlə məşğul olanların həbs göstəricisi əvvəlki aylarla müqayisədə təxminən 3 dəfə artıq olub. Hansı ki, DİN-in gündəlik açıqladığı rəsmi məlumatlara əsasən, 2005-ci ilin ilk ayında ölkəmizdə narkoticarətlə məşğul olan 728 nəfərin qoluna qandal vurulub. Bu da son 6 ayın ən yüksək göstəricisi hesab oluna bilər. Elə fevralda narkotiklə əlaqədar saxlanılan şəxslərin sayında yanvara nisbətən 17 nəfər artım olub ki, bu da ay ərzində ümumilikdə 745 nəfərin qandallandığı deməkdir. Demək, azalma yox, artım tempi var.

Azərbaycanın gündəmində demək olar ki, hər gün çoxsaylı narkotacirlərin ələ keçməsi haqda məlumatlar açıqlanır. Rəsmi bilgilərə görə, tutulanlar əksər halda narkotiki İrandan keçirən və satanlardır, onlar narkotikin pərakəndə satış etapındadırlar. Doğrudur, PUA ilə, yaxud başqa şəkildə İrandan gətirilmiş narkotik satışının aşkarlanması halları da artıb. Amma bu əməliyyatlar narkomaniyanı azalda bilirmi? Görünür ki, azalda bilmir. Əgər müsadirə satışı azalda bilmirsə, deməli, əməliyyatlar mənbəyə gedib çıxa bilmir. Yəni işlər yalnız pərakəndə satışa qismən təsir edir. Belə olduğu təqdirdə bu nəticəyə gəlinə bilər ki, narkobiznes şəbəkəsinin satdığı malın qaynağı yalnız PUA ilə ötürülən, yaxud iranlı adı altında maskalanmış şəxslərin kiloqramlarla gətirdiyi narkotik deyil. Üstəlik, keçirilən əməliyyatlar yalnız müəyyən faiz (təxminən 16 faiz-müəl.) narkotik partiyalarını aşkarlayır, hamısını yox. Çünki belə olmasaydı, ölkədə narkoticarət dayanar, narkomaniya da durğunluq yaşayardı.

Belə çıxır ki, əgər PUA-larla, ya da pərakəndə ötürülmə ilə ölkəyə gələn narkotiklərin yalnız bir qismi bazardan kənarlaşdırılırsa, satışı reallaşan və alıcısına çatan mənbəyə "toxunula bilmirg". Yaxud kiçik həcml narkotik müsadirələrinə imkan yaratmaqla, narkoticarətin başında duranlar hədəfi yayındırırlar. Özlərinin həcmcə daha kiçik tutumlu narkoalverçi fiqurlarını güdaza verərək, guya bütün narkoticarəti onların reallaşdırdığı mənzərəsini yaradaraq, hədəfi "böyük balıqlar"dan yayındırır, cəmiyyətə belə fikir aşılayırlar ki, bütün "narkotik bazarı" bu tutulan kiçik narkoalverçilərin "çiyinlərində bərqərar olub".

Amma fakt odur ki, bazar da, satış da yerindədir. Deməli, pərakəndə ötürülmədən başqa, Azərbaycana "topdan ötürülmə" də var. Bu topdan ötürülən narkotik axını isə "toxunulmaz" qalır, hələ ki. Elə satışın qaynağı olan bu topdan ötürülmənin ünvanına çatdırıldığı topdansatış məntəqələri də var. Narkoticarətin başında duran, yaxud duranlar prosesi elə tənzimləyirlər ki, müvafiq dövlət qurumları narkotik ötürülməsi əməliyyatlarına mane ola bilmirlər.

Bundan başqa, narkoticarətin qarısının alınması məsələsində çoxsaylı rəylərin içində elələri var ki, onlar sərt cəzaları gərəksiz hesab edirlər. Maraqıdır ki, niyə Gürcüstan və Qazaxıstan bunlara gedə bilir, Azərbaycan yox?! Gürcü məmurlar etiraf edirlər ki, narkosiyasətin liberallaşdırılması effekt vermədi, narkomaniya daha da "ayaq tutub yeridi". Bu səbəbdən də onlar cəzaların sərtləşməsinə gedirlər. Amma bizdə rəylər haçalanır. Gürcüstanda narkosiyasətin və narkoqanunların sərtləşməsi qərarının gündəmə gəlməsindən sonra müsbət nəticələr özünü göstərməkdədir.

Maraqlıdır, bizdə nəticə necə olardı? Bəlkə, bizim ekspertlər bu tədbirlərin effektivliyinə ona görə inanmırlar ki, kiçik narkotik alverçilərinin, yəni "kiçik balıqların tora düşəcəyini düşünürlər"? Yəni "narkoticarət ağsaqqalları"nın aşkarlana, tutula biləcəyinə, onlara "gözün üstündə qaşın var" deyilə biləcəyinə inanmırlar? Buna əsas varmı? Əgər ölkəyə böyük partiyalarla narkotk gəlirsə və topdansatış nöqtələrində saxlanılırsa, işin içində məmur barmağı olmasa, narkoticarətin çökdürülməsi niyə mümkünsüz olsun? Deməli, qeyd etdiyimiz kimi, narkoticarətin başında duran, yaxud duranlar ölkəyə irihəcmli narkotik ötürülməsi prosesini aidiyyəti dövlət qurumlarının "gözündən qaçıracaq şəkildə" tənzimləyə bilirlər. Əks halda, bu qədər əməliyyatlara rəğmən, ölkəmizdə hələ də narkoticarətin və narkomaniyanın "at oynatması" məntiqə sığmır.

Qazaxıstanda "korrupsiya sxemlərinin qarşısını almaq üçün hüquq-mühafizə orqanlarına nəzarətin artırılması" bəndi qanuna salınırsa, deməki, bunun əsası var. İşin içində korrupsiya sxemləri olmasaydı, narkotik axınının qarşısı alına bilərdi.

Bizdə ilk öncə topdansatış narkotik nöqtələri tapılıb məhv edilməli, narkotiki ölkəyə tonlarla gətirənlər qandallanmalı, onların bütün əmlakı əllərindən alınmalıdır. Amma burada ilk növbədə narkoticarətin və topdansatış şəbəkəsinin başında duranlar hədəf alınmalıdır. Sözsüz ki, onlarla yanaşı, daha kiçik tutumlu narkotacirlərin də əmlakı əlindən alınmaqla cəzalanmalıdırlar. Bir sözlə, Qazaxıstan təcrübəsinin bizdə də tətbiqi mütləqdir. Narkoticarətin qarşısı alına bilmirsə, deməli, məntiqlə biz də qanunların sərtləşdirilməsi mərhələsinə keçməliyik.

**Hazırladı: İ.SABİRQIZI**

**Vətənimizin ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman şəhid mayor Rasim Məmmədovun xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib. Naxçıvan Dövlət Texniki Kollecinin kollektivi tərəfindən təşkil edilən tədbir şəhidlərimizin əziz xatirəsinə dərin ehtiramın ifadəsi kimi baş tutub.**





# QƏHRƏMANLAR UNUDULMUR!

## Şəhid mayor Rasim Məmmədovun xatirəsi anıldı

Tədbir Dövlət Himninin səsləndirilməsi və şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Daha sonra Rasim Məmmədovun igidlik yolundan, Vətənə sədaqətindən və aprel döyüşlərində göstərdiyi qəhrəmanlıqlardan bəhs edən çıxışlar olub. Hər bir tədbir iştirakçısı şəhid ailələrinin cəmiyyət üçün dəyərini vurğulayaraq, Rasim Məmmədovun da təkcə ailəsinin deyil, bütöv Azərbaycanın qüruru olduğunu bildiriblər.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Dövlət Texniki Kollecinin direktoru, aqrar elmlər üzrə fəlsəfə doktoru Asəf Ruşanov şəhid mayor Rasim Məmmədovun həyat yolu barədə geniş məlumat verib. O, Rasimin uşaq yaşlarından Vətənə sevgi ilə böyüdüyünü, hər zaman intizamlı, fədakar bir insan olduğunu vurğulayıb. Asəf Ruşanov qeyd edib ki, Rasim Məmmədovun Aprel döyüşlərində göstərdiyi igidliklər onu Azərbaycan Ordusunun örnək zabitlərindən birinə çevirib. O bildirib ki, bu cür qəhrəmanların adı xalqımızın yaddaşında əbədi yaşayacaq, onların xatirəsi daim uca tutulacaq.





Daha sonra çıxış edən Babək Rayon İcra Hakimiyyətinin başçısı Ovni Muradov şəhid ailələrinin cəmiyyətin ən hörmətli və dəyərli insanları olduğunu vurğulayıb. O qeyd edib ki, Rasim Məmmədov təkcə ailəsinin deyil, bütövlükdə xalqımızın qürurudur. Onun keçdiyi şərəfli həyat yolu və qəhrəmanlığı gələcək nəsillər üçün örnəkdir. Ovni Muradov belə tədbirlərin vətənpərvərlik ruhunun aşılanması baxımından böyük əhəmiyyət kəsb etdiyini bildirib.

Tədbirdə iştirak edən "Naxçıvan Televiziya və Radio Verilişləri" QSC-nin sədri Sahil Tahirli çıxışında şəhidlərin adlarının mediada mütəmadi şəkildə işıqlandırılmasının vacibliyini vurğulayıb. O, hazırda həyata keçirilən televiziya layihələri vasitəsilə Rasim Məmmədov kimi qəhrəmanlarımızın həyat və döyüş yolunun cəmiyyətə, xüsusilə də gənclərə tanıdıldığını bildirib. Sahil Tahirli bu istiqamətdə jurnalistlərin və media nümayəndələrinin məsuliyyətindən də danışdı.

Şəhid mayor Rasim Məmmədovun anası Basti Məmmədova tədbirdə çıxış edərək, oğlunun uşaqlıqdan Vətənə bağlı bir övlad olduğunu, hərb sənətinə sevgi ilə yanaşdığını göz yaşları içində danışıb. O, Rasimin daim haqqın, ədalətin tərəfində olduğunu, əsgərlikdən qayıtdıqdan sonra hərbi karyerasını davam etdirmək qərarına gəldiyini bildirib. Basti xanım oğlunun şəhidliyi ilə qürur duyduğunu, amma onun yoxluğunun ailə üçün ağır olduğunu səmimi və kövrək şəkildə dilə gətirib.

Rasim Məmmədovun orta məktəbdəki müəllimi Hacı Fəxrəddin Səfərov isə onun məktəb illərindən vətənpərvər və nümunəvi bir şagird olduğunu xatırladıb.





Müəllimi Rasimin dərslərdə aktiv, ədalətli və mərd bir uşaq kimi yaddaşlarda qaldığını söyləyib. Onun şagirdlik illərindən hərb sahəsinə maraq göstərməsi və bu istiqamətdə özünü inkişaf etdirməsi barədə danışaraq, Rasim Məmmədovun şəhidlik zirvəsinə ucalmasının təsadüfi olmadığını vurğulayıb.

Naxçıvan MR Ali Məclisinin deputatı Ülkər Bayramova çıxışında qeyd edib ki, vətənpərvərlik təkcə sözlə deyil, əməllə nümayiş etdirilməlidir. O bildirib ki, Rasim Məmmədovun həyatı bu baxımdan ən gözəl nümunədir. Ülkər Bayramova şəhidlərin xatirəsinin daim uca tutulmasının, onların ailələrinə qayğı göstərilməsinin dövlət və xalq olaraq mənəvi borcumuz olduğunu söyləyib.

Şəhid mayorun həyat yoldaşı Samirə Məmmədova tədbirdə duyğulu çıxış edərək Rasimin həm ailəsinə, həm də Vətənə olan sədaqətindən danışıb. O, şəhid həyatının həm ağır, həm də böyük bir qürur hissi olduğunu bildirib. Samirə xanım Rasimin həyatını hər kəsə nümunə göstərərək, onun fədakarlığını övladına da Vətən sevgisi olaraq ötürmək istədiyini deyib.

Tədbirin ən təsirli məqamlarından biri Cəhri tam orta məktəbin 3-cü sinif şagirdi Hənifəyeva Güllünün çıxışı olub. Balaca Güllü şəhidlərə həsr olunmuş səmimi sözlərlə çıxış edib. Onun təmənnasız və qəlbdən gələn fikirləri tədbir iştirakçılarının gözlərini yaşardıb, zalda duyğusal anlar yaşadıb.

Tədbir zamanı 44 günlük Vətən müharibəsində şəhid olmuş qəhrəmanların valideynləri də söz alaraq, Rasim Məmmədovun timsalında bütün şəhidlərə Allahdan rəhmət diləyiblər. Onlar bildiriblər ki, şəhidlərimizin xatirəsini yaşatmaq və bu kimi tədbirlər keçirmək həm tariximizə sahib çıxmaq, həm də gələcək nəsilləri vətənə bağlı yetişdirmək deməkdir.

Anım tədbiri çərçivəsində şəhid mayor Rasim Məmmədovun həyat yolunu və döyüşlərdə göstərdiyi igidliyi əks etdirən xüsusi hazırlanmış videoçarx nümayiş olunub. Videoçarxda Rasim Məmmədovun uşaqlıq illərindən hərbi xidmətə qədər olan mərhələləri, aprel döyüşlərindəki qəhrəmanlığı və ailəsinin onunla bağlı duyğuları yer alıb. İştirakçılar böyük diqqət və emosional təsirlə izlədikləri videoçarx zamanı şəhidimizin fədakarlığını bir daha dərin hörmətlə yad ediblər.

Tədbirdə həmçinin kollec tələbələri tərəfindən hazırlanan bədii-musiqili kompozisiyalar da təqdim olunub. "Şəhidim" və "Şəhid balam" adlı musiqi nömrələri tədbirə duyğusal məzmun qataraq şəhid ailələrinin yaşadığı acını və eyni zamanda qürur hissini əks etdirib.

Kollec tələbələrinin ifasında səsləndirilən vətənpərvərlik mövzusunda bir neçə şeir isə şəhidlərin ruhuna ehtiram və xalqımızın qəhrəman övladlarına olan sevgisinin poetik ifadəsi olub. Şeirlər zamanı salonda sükut hökm sürüb, hər kəsin qəlbi eyni hisslərlə döyünüb - qürur və hüzn.

Tədbirin davamında şəhid mayor Rasim Məmmədovun övladı Asim Məmmədova və anası Basti xanım Məmmədovaya xatirə plaketləri təqdim olunub. Bu mənalı jest şəhid ailəsinə göstərilən yüksək ehtiramın bariz nümunəsi olub və tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

Tədbirin sonunda isə "Vətən Fədailəri" layihəsinin ümumi dəstəkçisi, şəhidin qardaşı - Qazi oğlu Şahin Məmmədov tərəfindən xüsusi bir təqdimat reallaşdırılıb. O, şəhid mayor Rasim Məmmədovun həyatına və qəhrəmanlığına həsr olunmuş kitabı təqdim edib. Kitab yalnız Rasimin şəxsi həyatını və döyüş yolunu deyil, eyni zamanda şəhidlik zirvəsinə ucalmış bütün qəhrəmanlarımızın xatirəsini əbədiləşdirmək məqsədi daşıyır. Bu nəşr həm tarixi sənəd, həm də vətənpərvərlik dərsi kimi qiymətləndirilib.

Tədbir iştirakçıları şəhid mayorun ailəsinə göstərilən diqqət və qayğıya görə təşkilatçılara təşəkkür ediblər. Onlar bu cür tədbirlərin gələcək nəsillər üçün həm tarix, həm də örnək olduğunu vurğulayıb və şəhidlərimizin heç zaman unudulmayacağını bir daha dilə gətiriblər.

**Allahverdi ALLAHVERDİYEV**
***Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kollecinin İngilis dili müəllimi***

# Mübariz Mənsimovun oğlu müəllimə "atıb"

## Məcid Mənsimov üzərində atasının, babasının və nənəsinin rəsmi olan xalça toxutdurdu, pulunu vermədi

**Bakı şəhər sakini A.Ə.Mikayılov tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət daxil olub. Qəzetimiz vasitəsilə "Palmali" Şirkətlər Qrupunun rəhbəri Mübariz Mənsimova müraciət edən şikayətçinin fikirlərini olduğu kimi dərc edirik:**

**"Hörmətli Mübariz Mənsimov!**

Mən 42 ilin riyaziyyat müəllimi olmaqla yanaşı, həmçinin 20 ildir xalçaçılıqla məşğul oluram.





Qeyd edim ki, yaxın bir dostumun vasitəsilə mərhum atanızın 40 mərasimində iştirak etmişəm. Biz oğlunuz Məcidin oturduğu stolun arxasında əyləşdik. Bir az söhbətdən sonra mən oğlunuza özümü təqdim etdim və xalçaçılıqla məşğul olduğumu bildirdim. Daha sonra "istəyirsiniz ki, xalça üzərində babanızın, nənənizin və atanızın birgə şəkli toxunsun?", - deyə ondan soruşdum. Bu zaman Məcid bundan məmnun ola biləcəyini söylədi. Qiymətlə bağlı da razılaşma oldu və mən oğlunuzdan hazır olduqdan sonra xalçanı hara çatdırmaq lazım olduğunu soruşdum. Həmin vaxt o, mənə özünün və şirkətin mətbuat xidmətinin rəhbəri olan Fidan xanımın əlaqə nömrəsini verdi.

**Hörmətli Mübariz Mənsimov!**

Kimsəyə sirr deyil ki, bu cür xalçaların toxunması üçün həm çox pul tələb olunur, həm də çox əziyyətli işdir. Şəxsən özüm sifariş verdikdə isə, təhvil alacağım xalçaların ən xırda nöqtəsinə kimi analiz edirəm.

Xalçanın tikilişinə başlamamış əmin olmaq üçün oğlunuz Məcidə zəng vurdum. Tanışlıq verib, xalçanı toxutdurmağa başladığımı diqqətinə çatdırdım. O isə, yenə əvvəl kimi, böyük məmnuniyyətlə qəbul edəcəklərini bildirdi.

Beləliklə, xalça hazır olduqdan sonra - 7 dekabr, 2023-cü ildə təyyyarə ilə İstanbul şəhərinə getdim. Oradan taksi ilə "Palmali" şirkətinin ofisinə yola düşdüm. Təhlükəsizlik xidmətinin əməkdaşlarına Məcid bəylə görüşmək istədiyimi bildirdim. Dedilər ki, o, şirkətdə olmur. Bu zaman "məni Mübariz bəylə görüşdürün", - dedim. Sizin də şirkətdə olmadığınızı dedilər. Nəhayət, məni telefon vasitəsilə Fidan xanımla danışdırdılar. Ona məlumat verdikdən sonra bildirdi ki, "xalçanı qoyun, gedin oteldə dincəlin, sizi dəvət edəcəyik". Xalçanı şirkətdə qoyub çıxdım və Şişlidə günü 50 dollardan olan otelə yerləşdim.

3 gün gözlədim, xəbər olmayınca, yenidən şirkətə yaxınlaşdım. Bu dəfə də şirkətdə heç kəsin olmadığını dedilər. Bu səbəbdən də bilet alıb, Bakı şəhərinə qayıtmağa məcbur oldum.

Bir neçə gün sonra mobil telefonuma SMS vasitəsilə mesaj gəldi. Xalçanın neçəyə başa gəldiyini soruşurdular. Bildirdim ki, xalça 6 min dollara başa gəlib. Yəni təkcə toxunmasına 8 min manat pul vermişəm, xalça hazır olana kimi - 3 ay yarım gedibgəlmişəm. Hər dəfə gedəndə toxucu xanımları mükafatlandırmışam. Beləliklə, xalçanın maya dəyəri 6 min dollar olub. Onu da əlavə etdim ki, "müəllim də üstündə nə verərverər".

Bu zaman Fidan xanım mənimlə bazarlıq etməyə başladı. Dedi ki, yox, bu qədər ola bilməz, bahadı. Ona başa salmağa çalışdım ki, media əməkdaşı olduğunuz üçün hansısa xalçanın neçəyə başa gəldiyini bilə bilməzsiniz.

Məlumat üçün bildirim ki, xalçanın 60 faizi ipək, 40 faizi isə yundur. Bu xalçaya müzeydə də baxış keçirilmişdi, orada da dedilər ki, çox qiymətli bir əl işidir. Toxunuşunu da bəyəndilər. Həqiqətən də xalça çox gözəl toxunub.



Fidan xanıma onu da bildirdim ki, mən hələ xalça toxuyanların, bu işdə zəhməti olanların pulunu verməmişəm, onlara ödəniş edilməlidir. Bundan sonra dedi ki, sizə yardım olunacaq. Çox vaxt keçmədən zəng vurdular ki, get, "Şərur İnşaat"dan pulunu götür. Getdim, amma mənə cəmi 3 min dollar verdilər. Həmin pulu da borclu qaldığım bəzi şəxslərə verdim.

Bir müddət sonra yenidən Fidan xanımla əlaqə saxladım. Dedim ki, "Fidan xanım, 3 min dollar bu xalçanın qiymətinin heç yarısı deyil, xahiş edirəm müəllimə bildirin, pulumu versin".

2024-cü ilin iyun ayında Mənsimov qardaşları atalarına il verirdilər. Orda Mübariz bəyin qardaşı Mayis müəllimlə görüşdüm. Bir müddət sonra İçəri şəhərdə, Cümə məscidi ilə üzbəüz ofisdə Mübariz Mənsimovun bacısı oğlu Paşa müəllimlə görüşdüm. O, Fidan xanımı çağırdı. Fidan xanım əvvəl məni tanımadı, sonradan xatırladığını söylədi. O, yenə eyni sözləri təkrar edərək, xalçanın qiymətinin çox baha olduğunu bildirdi. Bu zaman qeyd etdim ki, "vallah, Məcid bəy razılıq verməsəydi, heç bu addımı atmazdım". Bundan sonra Paşa müəllim dedi ki, "ya müəllimin pulunu verin, ya da xalçasını geri verin. Əvvəl verdiyiniz 3 min dolları isə, xalçanı qaytarsanız belə, almayın ondan". Məndə fikirləşdim ki, eybi yox, xalça qayıtsa, saxlayaram, Mübariz Mənsimov Azərbaycana nə vaxt gəlsə, onun özünə verərəm.

**Hörmətli Mübariz Mənsimov!**

Əminəm ki, mənim pulumun kəsilməsindən, getgələ salınmağımdan sizin xəbəriniz yoxdur. Bu baxımdan, sizdən xahiş edirəm ki, mənim müraciətimi cavabsız qoymayın".

Məsələ ilə bağlı "Palmali" Şirkətlər Qrupunun rəhbəri Mübariz Mənsimov və mətbuat xidmətinin rəhbəri Fidan xanımla əlaqə saxlamağa çalışsaq da, telefon zənglərimiz cavabsız qaldı.

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları çəkilən şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

# İşdən qanunsuz olaraq çıxarıldı, 16 il maaşını DSK sədri aldı

## Gəncə şəhər sakini Faiq Hacıyevdən DSK sədri Eldar Əhmədova qarşı şok ittihamlar




**Gəncə şəhəri, İsmət Qayibov küçəsi, ev 175 ünvanında yaşayan Hacıyev Faiq Eyyub oğlu tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi qəzetimiz vasitəsilə Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramova, Gəncə şəhər prokuroru Rauf Gözəlova və Mərkəzi Seçki Kommisiyasının sədri Məzahir Pənahova müraciət edir:**

**"Hörmətli Cənablar!**

Yazıb Sizə bildirirəm ki, mən 2008-ci ilin yanvar ayında 40 saylı Gəncə 3-cü seçki dairəsinin sədri Əhmədov Elbar Sabir oğlu tərəfindən 2 aylıq gözətçi vəzifəsinə işə qəbul edilmişəm. 2 aydan sonra mənə dedilər ki, iş müddətin yekunlaşdı. Lakin 2024-cü ilin dekabr ayına kimi orada işləməyimdən xəbərim olmayıb. Heç bir xəbərdarlıq olunmadan, Əmək Məcəlləsini "70 Ç" maddəsi ilə işdən azad olunmuşam.

Sizdən xahiş edirəm ki, 2008-ci ildən 2024-cü blədək işləmədiyim halda, əmək müqaviləmin hansı əsaslarla qüvvədə olduğunu, həmin müddətdə mənə əmək haqqının yazıldığını araşdırıb tədbir görəsiniz və "70 Ç" maddəsinin dəyişdirilməsinə köməklik göstərəsiniz.

**Hörmətli Məzahir müəllim!**

Azərbaycanda seçki sisteminin demokratikləşməsində sizin əməyiniz danılmazdır. Mənim sizə verəcəyim məlumat bir sıra qaranlıq məqamlara aydınlıq gətirmək məqsədi güdür. Məqsədim 40 saylı Gəncə 3-cü Dairə Seçki Komissiyasının sədri Elbar Əhmədovun törətmiş olduğu cinayətlər haqqında bilgi verməkdir. Bildirirəm ki, 2008-ci ildə Elbar Əhmədov məni iki aylıq gözətçi işinə qəbul etmək adı ilə lazımı sənədlərimi götürdü. İki aydan sonra işin başa çatmasını mənə bildirdi.

21 noyabr 2024-cü il tarixdə həmin Dairə Seçki Komissiyasının mühasibi Samir Musayev mənə müraciət edərək bildirdi ki, Mərkəzi Seçki Komissiyasının tələblərinə uyğyn olaraq əmək müqaviləsini yeniləyərək, təsdiq etmək lazımdır. Bundan sonra mənə aydın oldu ki, mən işdən azad olunmamışam və 16 il müddətində mənə əməkhaqqı yazılmış və təbii ki, DSK sədri tərəfindən mənimsənilmişdir. Bu, artıq korrupsiya əməli idi. Bu haqda 25 dekabr 2024-cü il tarixində Gəncə şəhər Prokurorluğuna müraciət etdim. Prokurorluqda istintaq araşdırmasına başlanıldı.

Gəncə şəhər Prokurorluğunda izahat verən 40 saylı DSK-nın mühasibi Samir Musayev mənim adıma olan maaş kartını DSK-nın sədri Elbar Əhmədova verdiyini izahatı ilə təsdiq etmişdir. Bir müddət sonra Elbar Əhmədov mühasibdən əməkhaqqı kartını ona yox, DSK-nın gözətçisi Arif Bəhramova verməsi haqqında yeni izahat verməsini xahiş etsə də, mühasib bu qanunsuz xahişlə razılaşmamış və izahatını dəyişməmişdir. Başqa sozlə, bu maaş kartını Elbar Əhmədova verdiyini israrla təsdiq etmişdir.

Beləliklə, dövlət vəsaitinin 16 il ərzində Elbar Əhmədov tərəfindən mənimsənildiyi şübhə doğurmur. Həmçinin, bu müddət ərzində işə bir gün belə gəlməmiş əməkdaşın adına əməkhaqqı yazılması, gündəlik işdə olmaması, DSK sədri tərəfindən 16 il həmin vəsaitin mənimsənilməs üçün necə böyük qanunsuzluq, başqa sözlə, korrupsiya əməli olduğunu dərk etməmək belə, sağlam düşüncəyə ziddir.

**Hörmətli cənab sədr!**

Elbar Əhmədovun Gəncə şəhər Prokurorluğunda əmək haqqı karıtını DSK-nın gözətçisi Arif Bəhramova verməsi ilə bağlı verdiyi izahat insanlarda gülünc və ikrah hissi doğurur. İstintaq dövrü Bələdiyə seçkiləri dövrünə təsadüf etdiyindən belə təsəvvür yaranırdı ki, DSK sədri haqqında lazımı ölçülər MSK tərəfindən seçkidən sonraya saxlanılır. Artıq seçki başa çatmışdır. Korrupsiya əməlinə qurşanmış olan bu cür məmurun seçki sistemində rəhbər vəzifə tutması hüquqi dövlət olan Azərbaycan Rüspublikasında yolverilməzdir.

Ümidvarıq ki, qanunçuluğa böyük hörmətlə yanaşan MSK sədri Məzahir Pənahov DSK sədri Elbar Əhmədovun törətdiyi əməllərə göz yummayacaq və o layiq olduğu cəzanı alacaqdır.

Güman edirəm ki, Elbar Əhmədovun bu illər ərzində törətdiyi qanunsuz əməllər haqqında möhtərəm Prezident İlham Əliyevə müraciət etməyə ehtiyac qalmayacaqdır".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları çəkilən şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

# "Rus Evi"nin fəaliyyəti bərpa olunur?

## Primakov yenə peyda olub və "kompromis"dən danışır

**"Biz Azərbaycan tərəfi ilə kompromis axtarmaqda davam edirik. Həm Azərbaycan tərəfi, həm də biz konstruktiv mövqedəyik və kifayət qədər nikbinik ki, hələ də kompromis tapacağıq və tammiqyaslı iş bərpa olunacaq".**

Bunu Bakıda fəaliyyəti dayandırılan "Rus Evi"-nin tabe olduğu "Rossotrudniçestvo"-nun rəhbəri Yevgeni Primakov



Rusiya mediasına açıqlamasında deyib.

Primakovun dediyinə görə, Moskva və Bakı Azərbaycandakı "Rus Evi" ilə bağlı kompromis axtarırlar və guya hər iki tərəf konstruktiv mövqedədir, işin bərpa olunması məsələsində nikbindir.

O əlavə edib ki, Rusiya və Azərbaycan əvvəllər "Rus Evi"nin qeydiyyatı formatını müzakirə ediblər və guya onun fəaliyyəti qanuni olub: "Bakıdakı "Rus Evi" uzun illərdir ki, respublika hökuməti qarşısında bütün zəruri öhdəlikləri, o cümlədən hüquqi öhdəlikləri yerinə yetirərək uğurla fəaliyyət göstərib. Bununla belə, informasiya və mədəniyyət mərkəzlərinin fəaliyyəti haqqında 1997-ci il tarixli hökumətlərarası sazişdə açıq şəkildə qeyd olunub ki, bu mərkəz Azərbaycanda hüquqi şəxs kimi qeydiyyatdan keçməlidir".

Xatırladaq ki, Rusiyanın AZAL təyyarəsini vurmasından və iki ölkə arasında münasibətlərin gərginləşməsindən sonra bu ilin fevralında Bakıdakı "Rus Evi"-nin fəaliyyəti Azərbaycan qanunvericiliyinə uyğun olaraq dayandırılıb. Bu təşkilatın Rusiya kəşfiyyatına və digər qaranlıq məqsədələrə xidmət etdiyi barədə Azərbaycan mediasında gedən materiallardan sonra Y.Primakov Azərbaycan KİV-lərini məhkəmə ilə hədələmişdi.

Qeyd edək ki, bundan öncə Azərbaycana səfər edən Rusiya Federasiyası Şurasının rəhbəri Valentina Matvienkonun da Bakıda "Rus Evi"-nin bərpası məsələsini qaldırdığı barədə məlumat yayılmışdı.

Rusiya XİN sözçüsü Mariya Zaxarova da dəfələrlə bu mövzuyla bağlı Kremlin narahatlığını ifadə edib. Rusiya tərəfinin "Rus Evi"-nin bərpasında bu qədər israr etməsi, bu təşkilatın doğrudan da sadəcə, rus mədənəiyyəti, ədəbiyyatı və s. təbliğ edən humanitar missiya daşımadığını, daha çox siyasi maraqlara, imperiya maraqlarına və Azərbaycanda "yumşaq güc"ün saxlanmasına xidmət etdiyini təsdiqləyir.

**C.Məmmədov**

# ABŞ dilemma qarşısında...

## Tramp iki yoldan birini seçməlidir, ancaq...




## ABŞ prezidenti dolların emissiyasını öz nəzarətinə götürə biləcəkmi?

**Donald Trampın ABŞ-a idxal edilcək bütün xarici məhsullara rüsüm tətbiq etməsi yaxın gələcəkdə dünya iqtisadi sistemində iri miqyaslı yenilənməyə gediləcəyindən xəbər verir.**

Əslində, Trampın belə bir tədbirə əl atacağı tamamilə gözlənilən idi və o, bunu edəcəyini həmişə söyləyirdi. Tramp tariflərlə bağlı fərman imzalayandan sonra Amerikanın daha böyük gücə yiyələnəcəyini və ölkəsinin yenidən qızıl dövrə qayıdacağını bildirib. Amma maraqlıdır, görəsən o, Amerikanın hansı dönəmlərini indiki ilə müqayisədə daha möhtəşəm hesab edir? Nədənsə Tramp bu barədə susur və yalnız ümumi şüarlarla kifayətlənir.

Hazırda dünya iqtisadiyyatını dərin böhran bürüməsə də, real sektora sərmayə qoyuluşu öncəki kimi gəlir gətirmir. Bunun kompleks səbəbləri var və ən başlıcası da kapitalizmin xarakterindən asılıdır. Belə görünür ki, ABŞ dünya iqtisadiyyatının lokomotivi olmaqdan və ballast yükü daşımaqdan tədricən imtina etmək niyyətindədir. Amerika Birləşmiş Ştatları sanki dillema qarşısında dayanıb...

Birincisi, əgər ABŞ dünya iqtisadiyyatının əvvəlki kimi işləməsinə, hər şeyin yerində qalmasına razıdırsa, onda o, öz hegemon gücünü itirəcək.

İkincisi, əgər ABŞ mövcud vəziyyətin davam etməsinə razı deyilsə, onda o, istehlak mərkəzi rolundan imtina etməli və sərt proteksionist siyasət həyata keçirməklə bütün imkanlarını istehsal potensialının yüksəlməsinə yönəltməlidir. Trampın tarif siyasətindən aydın olur ki, ABŞ ikinci yolu tutacaq.

Beləliklə, ABŞ xarici ticarətdəki mənfi saldonu yalnız dollar emissiyası vasitəsilə qapadarsa, onda Amerika Çinin, Avropa ölkələrinin inkişafı üçün özünü qurban vermiş olar. Əgər Bayden administrasiyası daha bir müddət hakimiyyətdə qalsaydı, ABŞ-nin yaxın beş ildə dərin iqtisadi və mənəvi tənəzzülə qərq olacağı qaçınılmazdı. Çünki qloballaşma tərəfdarı olan Demokratlar partiyası Amerika Birləşmiş Ştatlarını faktiki sənayesiz qoyacaqdılar. Amerikadakı mühafizəkarlar haqlı olaraq sual verirlər ki, niyə ticarət balansındakı vəziyyət ABŞ-a zərbə vurmalıdır? Niyə qloballaşmadan Çin fayda götürməli, önə çıxmalı və nə vaxtsa nəhəng sənaye potensialına malik ABŞ problemlərlə üzləşməlidir?

ABŞ-da artıq müvafiq tədbirlər görməyin vaxtının gəldiyini yaxşı anlayırlar. Trampın öz sələflərindən fərqli siyasət yürütməsi təkcə onun impulsivliyindən irəli gəlmir. Ortada kapitalizmin xarakterindən qaynaqlanan böyük çaplı qlobal problem var və bu problemin həll olunması birbaşa ABŞ-nin üzərinə düşür.

> ABŞ-da artıq müvafiq tədbirlər görməyin vaxtının gəldiyini yaxşı anlayırlar. Trampın öz sələflərindən fərqli siyasət yürütməsi təkcə onun impulsivliyindən irəli gəlmir. Ortada kapitalizmin xarakterindən qaynaqlanan böyük çaplı qlobal problem var və bu problemin həll olunması birbaşa ABŞ-nin üzərinə düşür.

ABŞ-da baş verən istənilən maliyyə çalxantısı anında dünyaya yayılır. Bildiyimiz kimi, 2008-ci ildə ABŞ-də meydana gələn ipoteka böhranı domino effekti kimi ilk olaraq iri həcmli maliyyə strukturlarına zərbə vurduqdan sonra növbə real sektora da çatmışdı, enerji daşıyıcılarının qiyməti 3-4 dəfə ucuzlaşmışdı. Nəticədə dünya iqtisadiyyatı 2008-2009-cu illərdə ciddi tənəzzülə girmişdi. Belə bir təlatümün qarşısı elə məhz ABŞ tərəfindən alınmışdı. FRS uçot faiz dərəcəsini sıfıra endirmiş, "Quantitative easing" adlanan xüsusi vasitəylə maliyyə bazarlarına küllü miqdarda pul tökülməsi hesabına dünya iqtisadiyyatı yenidən canlandırılmışdı.

Böhrandan çıxmaq üçün FRS-in maliyyə likvidliyini gücləndirməsi ABŞ-də real iqtisadiyyatı yox, xaricdən alınan mallar sayəsində istehlakçılığı böyütmüşdü. ABŞ-də istehlak səviyyəsinin yüksəlməsindən ən çox fayda götürən ölkə isə Çin Xalq Respublikası olmuşdu.

Çinin eksponensial inkişafının başlıca səbəbi onun istehsal etdiyi istənilən məhsulun öz maya dəyərindən xeyli baha qiymətə ABŞ bazarında satılmasıyla əlaqədardır.

ABŞ hələ İkinci Dünya Müharibəsindən sonra formalaşan və bəzi islahatlara uğramış mövcud iqtisadi maliyyə modelinin bütün çatışmamazlıq və ağırlıqlarını öz çiyinlərində daşımaq məcburiyyətində qalıb. Ancaq hazırda bu model yalnız beynəlxalq maliyyə oliqarxiyasına sərf edir. Əgər azad bazarın və mövcud qlobal ticarət sxeminin işləmə mexanizmi ABŞ dövlətinə ziyan vurursa, onda ondan tədricən yaxa qurtarmağa başlanılacaq.

Bəs, Tramp bu qədər qəliz bir vəziyyətdən ABŞ-ı çıxartmaqla yanaşı, özünün dediyi kimi onu yenidən böyük edə biləcəkmi?

Dünya vahid bazardır və ABŞ-ın özü Çin, Avropa Birliyi, Yaponiya kimi bu bazarın ən böyük iştirakçılarından biridir. Lakin məsələ ondadır ki, dünya bu gün vahid bazar və dollar sistemindən asılıdırsa, onda Tramp ABŞ-dakı istehsalı artırmaqla bu qüsurlu həlqədən necə xilas olacaq? Getdikcə özünəmi qapanacaq?

Əgər Tramp həqiqətən də istehsalın bərpası üçün lazımı mühiti yaratmaq niyyətindədirsə, onda o gərək ilk növbədə beynəlxalq maliyyənin axışından başlasın. Yəni, ABŞ dövləti ölkələr arasında maliyyənin sərbəst şəkildə hərəkətində ən vacib amil olan dolların emissiyasını öz nəzarətinə götürməlidir. Hələ ki, Tramp bu axının qabağını kəsə bilməz, çünki dolların emissiya mərkəzi olan FRS-ə qarşı prezidentin hər hansı tədbir görməsi qanunla yasaqlanıb.

Tramp və komandası anlamalıdır ki, təkcə rüsum artımı ilə belə bir tarixi missiyanın öhdəsindən gəlinə bilməz. Beləliklə, əgər Tramp FRS-lə razılaşdırılmış plan əsasında yeni bir beynəlxalq iqtisadi-maliyyə modelinin və siyasi nizam qaydalarının formalaşmasına getməzsə, onda onun fəaliyyəti "Make America Great Again" şüarını gerçəkləşdirə bilməyəcək.

**V.Nəsibov**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

# Regionda yaranmış yeni reallıqlar...

## Vətən müharibəsində əldə etdiyimiz qələbə təkcə ölkəmizin deyil, regionun təhlükəsizliyinə töhfə oldu

**Qəhrəman hərbçilərimizin şücaəti, Prezident İlham Əliyevin diplomatik məharəti, prinsipiallığı, dəqiq və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan dövləti 44 günlük Qarabağ savaşında böyük qələbəyə imza atdı. Bununla da, Ermənistanın işğalı altında olan torpaqlarımız geri qaytarıldı və 30 illik işğala son qoyuldu.**



Əlbəttə, Vətən müharibəsi Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyinin qorunması üçün olduqca mühüm bir mərhələ oldu. Azərbaycan Silahlı Qüvvələri yüksək döyüş qabiliyyəti, müasir texnologiyaların tətbiqi və səmərəli strateji yanaşmalarla müharibəni qazandı.

Sirr deyildi ki, torpaqlarımız işğalda olduğu illər ərzində Azərbaycan ordusunun istər müasir silahlarla təchizatı və taktikası, istər də döyüş ruhu düşməni məğlub etmək üçün günbəgün güclənməkdə idi. Paralel olaraq münaqişənin diplomatik həlli istiqamətində də fəal addımlar atılmaqda idi. Çünki, istər dövlət rəhbərliyinin, istər də hər bir vətəndaşımızın mövqeyi bəlli idi: gec-tez torpaqlarımız işğaldan azad ediləcəkdi. Şübhəsiz, bunu düşmən də bilməmiş deyil. Elə bu səbəbdən də zaman-zaman erməni silahlıları beynəlxalq hüququ kobud şəkildə pozaraq, sülh və insanlıq əleyhinə bir çox cinayətlərə imza atırdı.



Məsələn, 44 günlük savaşdan az əvvələdək Ermənistan tərəfi bir çox mülki obyektləri, o cümlədən yaşayış binalarını və məktəbləri hədəf alırdı. Hansı ki, yüksək texnologiyalı raketlərdən istifadə edərək Azərbaycanın mülki əhalisini, o cümlədən şəhərləri, kəndləri və infrastrukturu atəşə tutmaq "müharibə qanunları"na zidd bir davranışdır. Xatırladaq ki, xüsusilə, Gəncə, Bərdə, Tərtər kimi şəhərlərə edilən raket hücumları nəticəsində çox sayda mülki şəxs həlak olmuş, bir çoxları yaralanmışdır. Bu cinayətlər müharibə zamanı mülki əhalinin qorunmasına dair beynəlxalq qanunları açıq şəkildə pozmuşdur. Bütün bunlarla yanaşı, Ermənistan müharibə əsirlərinə qarşı da işgəncələr həyata keçirmiş, bəzi köməksiz insanları - əsirləri və girovları öldürmüşdür.

Əlbəttə, Azərbaycan dövləti istər müvafiq hökumət idarələri, istər diplomatik korpuslar, istər də müxtəlif beynəlxalq qurumlar vasitəsilə bu cinayətləri işıqlandırmağa, Ermənistanın törətdiyi insanlıq əleyhinə hərəkətləri dünya ictimaiyyətinə çatdırmağa çalışırdı. O cümlədən, müvafiq beynəlxalq məhkəmələrdə müharibə cinayətləri ilə bağlı Ermənistanın məsuliyyətə cəlb edilməsi istiqamətində də fəal addımlar atılırdı. Bütün bunlarla bərabər, Prezident İlham Əliyev və digər dövlət rəsmiləri beynəlxalq təşkilatlarla görüşlər keçirir, Azərbaycanın ərazi bütövlüyünün pozulmasını, düşmənin vətəndaşlarımıza qarşı həyata keçirdiyi müharibə cinayətləri qarşı tərəfin diqqətinə çatdırılırdı. Bu, Azərbaycanın haqlı mübarizəsini, ermənilərin isə törətdiyi cinayətləri dünyaya çatdırmaq üçün mühüm əhəmiyyətə malik idi...

44 günlük Vətən müharibəsi ölkəmizin suverenliyinin, ərazi bütövlüyünün qorunması adına müasir dövrün ən mühüm zəfərlərindən biri oldu. Bu müharibədə qazanılan qələbə Azərbaycanın haqlı mübarizəsini ortaya qoymaqla yanaşı, həm də Ermənistan tərəfindən törədilən müharibə cinayətlərini dünya ictimaiyyətinə çatdırdı. Üstəlik, bu, təkcə Azərbaycan üçün deyil, regionun və bütün dünyanın terrordan əziyyət çəkən xalqları üçün stimula çevrildi. İndi bütün dünyada hər kəsə bəllidir ki, istər Birinci Qarabağ savaşında, istər də 44 günlük müharibə dövründə erməni təcavüzkarları insanlığa yad olan, heç bir norma və əxlaqa sığmayan vasitələrə əl atmış, xalqımıza qarşı növbəti vəhşiliklər törətmişdir. Məsələn, döyüşlər gedən ərazilərdən çox-çox uzaqlarda yerləşən şəhər və kəndləri, yaşayış obyektlərini, mülki əhalini qadağan olunmuş silahlarla, ballistik raketlərlə, toplarla atəşə tutmuş, 100-ə yaxın dinc sakin həlak olmuş, dörd yüzdən çox mülki vətəndaş yaralanmış, minlərlə binalar dağıdılmış, infrastruktur obyektlərinə ciddi ziyan dəymişdir. Füzuli, Cəbrayıl, Ağdam və digər rayonlara səfər edərkən ölkə başçısının özü də ermənilərin nə qədər vandal, barbar hərəkətlərə yol verdikləri ilə bağlı fikirlər səsləndirməkdədir. Otuz ilə yaxın müddətdə yağı düşmən işğal altında olan bütün torpaqlarımızda soyqırım həyata keçirib. Evlər, infrastruktur dağıdılıb, tarixi, mədəni, dini abidələrə, təbiətə ciddi ziyan vurulub.

Lakin Vətən müharibəsindəki qələbəmiz bir daha Azərbaycanın dəmir yumruğunun qarşısında heç bir gücün, silahın, sursatın dayana bilməyəcəyini göstərdi. Prezident İlham Əliyevin dediyi kimi, bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir.



Göründüyü kim, qəhrəman hərbçilərimiz Azərbaycanın ərazi bütövlüyünü bərpa etməklə yanaşı, həm də regionda tamamilə yeni bir reallıq yaratdı. Bu, ölkəmizin regionun təhlükəsizliyinə növbəti töhfə də hesab oluna bilər. Çünki vaxtilə ermənilər tərəfindən terror yuvasına çevrilən torpaqlarımızda bu gün dinclik, əminamanlıq hökm sürür. Məhz bunun nəticəsidir ki, artıq vətəndaşlarımız tədricən öz dədə-baba torpaqlarına qayıtmaqdadırlar. Elə, dünən - 07 aprel 2025-ci il tarixində "Böyük Qayıdış" proqramı çərçivəsində Ağdərə rayonunun Suqovuşan kəndinə 185 nəfərdən ibarət 53 ailənin növbəti köçünün baş tutması da dediklərimizin bariz nümunəsi hesab oluna bilər.

Qeyd edək ki, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, ölkənin müxtəlif şəhər və rayonlarından yola salınan keçmiş məcburi köçkünlərə doğma atababa yurdlarında mənzillərin açarı təqdim edilib və ailələr yeni evlərində yerləşiblər. Bununla da bugünədək Ağdərə rayonunun Suqovuşan kəndinə ümumilikdə 126 ailə köçürülüb. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhramanov bildirib ki, köçürülən ailələrin işlə təmin edilməsi xüsusi diqqətdə saxlanılır. Onun sözlərinə görə, Suqovuşan kəndinə köç bundan sonra da davam edəcək. Kəndə planlaşdırılan köçlə bağlı ümumilikdə 180 ailə (591 nəfər) siyahıya alınıb.

Kimsədə şübhə yoxdur ki, "Böyük Qayıdış" proqramı çərçivəsində nəinki Suqovuşan, işğaldan azad olunan bütün kəndlərimiz tezliklə öz sakinlərini qəbul edəcək, vətəndaşlarımız illərdir həsrət qaldıqları yurdlarına qovuşacaqlar.

**"Hürriyyət"**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında çap olunur**

# "Oğlum özünü asmayıb, onu işgəncə ilə öldürüblər"

## Goranboy sakini övladının hərbi xidmətdə qətlə yetirildiyini iddia edir



**Goranboy rayonu, Kələk kənd sakini Süleymanova Tamilə Çingiz qızı tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə və Müdafiə naziri Zakir Həsənova müraciət edir:**

**"Hörmətli Prezident!**

**Hörmətli Zakir Həsənov!**

Mən, Süleymanova Tamilə Çingiz qızı, yazaraq Sizdən xahiş edirəm ki, qətlə yetirilən oğlum Hüseynov Anar Yolçu oğlunun qanının batmasına imkan verməyəsiniz. Bunu Sizlərdən bir ana kim xahiş edirəm.

Bildirim ki, oğlumu 2024-cü il aprel ayının 1-də hərbi xidmətə yola saldıq. 3 ay Gəncə şəhərində xidmət etdi. 3 aydan sonra isə Şuşa şəhərindəki N saylı hərbi hissəyə göndərildi.

Şuşaya gedəndən sonra dəfələrlə zəng vurub, evdən pul istəyirdi. Bir-iki dəfə göndərdim, sonra gücüm çatmadı. Pul göndərə bilmədiyimə görə, oğlum dəfələrlə orada təhqir olunub, təzyiqlərə məruz qalıb.

Noyabr ayının 4-nə kimi oğlumu döyərək, ağır işgəncələr veriblər. Noyabr ayının 6-da səhər tezdən zəng vuraraq bildirdilər ki, oğlun özünü asıb. Dünyam başıma yıxıldı...

**Cənab Prezident!**

**Cənab Zakir Həsənov!**

Oğlum özünü asmayıb, onu işgəncə ilə öldürüblər. İndi isə heç bir qurum şikayətimə baxmır. Bu günə kimi oğlumun ölüm kağızını da ala bilməmişəm, vermirlər. Məhkəmə belə, olmayıb.

Mən Sizdən kömək istəyirəm, yalvarıram, oğlumu qətlə yetirənlər tapılıb cəzalandırılsın".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Mövzunu diqqətdə saxlayacağıq. Aidiyyəti qurumların və şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

# 44 günlük müharibə iştirakçısından nazirə müraciət

## Şəmkir sakini Arif Cəfərov ona əlillik dərəcəsi verilməməsindən şikayətçidir

**Şəmkir rayon sakini, 44 günlük müharibə iştirakçısı Cəfərov Arif Ruslan oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Saytımız vasitəsilə Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Anar Əliyevə müraciət edən şikayətçinin məktubunu olduğu kimi dərc edirik:**

**"Cənab Nazir!**

Mən, Cəfərov Arif Ruslan oğlu, yazaraq sizdən xahiş edirəm ki, müraciətimi cavabsız qoymayasız.

Biz müharibə iştirakçılarına Əlillərin Bərpa Mərkəzində çox kobud davranırlar. Sanki Azərbaycanın azadlığı uğrunda yox, Ermənistanın azadlığı uğrunda döyüşüb, yarıcan qalmışıq. Əlillik üçün müraciət edirsən, bizə öz ciblərinin pulunu verəcəklərmiş kimi münasibət göstərirlər.


AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
"RESPUBLİKA PSİXİATRİYA XƏSTƏXANASI"
PUBLİK HÜQUQİ ŞƏXSİ

Az1039, Bakı şəhəri, Sabunçu rayonu, Maştağa qəsəbəsi, Axund Şeyx Hüseyn küçəsi 155
Elektron poçtu: psixiatria@rambler.ru

Tel: + 994 12 455 10 91
Fax: +994 12 455 05 74

"25" 06 2024 il — № 5374

Hekim Psixiatr Komissiyasının

RƏYİ

№ 5234 — Tarix: 25.06.2024-cü il

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 17 fevral 2023-cü il 3-28/3-1-118/2023 **saylı "Vətən müharibəsi iştirakçılarının psixiatriya müayinələrinin təşkili barədə"** əmrinə uyğun **Cəfərov Arif Ruslan oğlu** Respublika Psixiatriya Xəstəxanasının nəzdində yaradılmış Həkim Psixiatr Komissiyası tərəfindən müayinə olunub.

**Diaqnoz: Fəlakət (II Qarabağ müharibəsi) keçirdikdən sonra davamlı şəxsiyyət dəyişikliyi, davranış pozuntuları ilə F 62.0 Üzvi patologiyanı təsdiq etmək məqsədilə nevroloji müayinə tövsiyə olunur**

**Komissiyanın sədri:**

Prof. Fuad İsmayılov — Psixi Sağlamlıq Mərkəzinin baş direktoru

**Komissiyanın üzvləri:**

Vüqar Yusifov — Respublika Psixiatriya Xəstəxanasının həkim-psixiatrı

Nihad Məmmədov — Respublika Psixiatriya Xəstəxanasının həkim-psixiatrı

Bildirim ki, ağrılarım güclüdür, müalicələrimə pul çatdıra bilmirəm. Azyaşlı uşağım var, istəmirəm atasını əsəbi, narahat adam kimi tanısın. Mən həqiqətən də xəstəyəm. Ömrümün yarıdan çoxu xəstəxanalarda keçir. Çanaq sümüyümdə qəlpə var. Həkimlər çıxara bilmədilər. Qulağım zəif eşidir. Sinirlərim zədələnib. Həm şəxsiyyət pozğunluğu, həm də şəxsiyyət dəyişkənliyi diaqnozu qoyulub.

Qolumun birində sinirdən quruma var. Əsasız, yaxud da yoldaşımın köməyi olmadan addım belə ata bilmirəm. İş qabiliyyətim yoxdur. Ayağımın biri digərindən arıqdır. Saymadığım bir çox problemlərim var.

**Cənab Nazir!**

Əvvəlki nazir kimi, siz də "kim harda ölür ölsün, nə işim var?!" deyirsiniz, yoxsa həqiqi xəstələrə kömək edəcəksiz?

Mənim kimi iş qabiliyyəti olmayan müharibə iştirakçısı nə etməlidir? Bir daha deyim ki, ağrılarım çox güclüdür. Bunu ancaq yaşayan bilər.

6 ay müddətində müraciət edə bilmərəm. 6 ay sonra yenidən müraciət edəcəm. Normal adamlar kimi yaşaya bilsəydim, niyə xəstəxanalarda qalıram?! Xahiş edirəm, nəzərə alın. Şəxsən qəbul etsəniz, qəbulunuza da gəlib sənədlərimi təqdim etməyə hazıram.

Xahiş edirəm, məni yaxşı müayinə edib, əlillik dərəcəsi verməələri üçün göstəriş verəsiniz".

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mətbuat Xidmətindən Hurriyyet.az-a bildirilib ki, Arif Cəfərovun sağlamlıq vəziyyəti əlillik təyinatına əsas vermir:

"Şəmkir rayon sakini 2000-ci il təvəllüdlü Cəfərov Arif Ruslan oğlu əlilliyinin qiymətləndirilməsi ilə bağlı tibb müəssisəsi tərəfindən rəsmiləşdirilən forma-88 göndərişləri əsasında 29.03.2022, 11.11.2022, 04.08.2023 və 25.10.2024-cü il tarixlərdə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyində əyani müayinə edilib.

Səhiyyə Nazirliyinin və Agentliyin həkim-ekspertlərinin birgə müayinələri zamanı vətəndaşın hazırkı sağlamlıq vəziyyətinin əlillik təyinatına əsas vermədiyi müəyyən edilib. Bu səbəbdən də Nazirlər Kabinetinin 13 may 2022-ci il tarixli 187 nömrəli qərarı ilə təsdiq edilmiş "Əlilliyin müəyyən olunması meyarları"na uyğun olaraq Diaqnozun əlillik əlaməti təyin etməməsi barədə qərar qəbul edilib".

**Jalə FAMİLQIZI**

# Astara sakini dələduzluqla üzləşib

## 100 manat verib adına kredit götürdülər, 11 ildir borc ödəyir...

**Astara rayonu, Ərçivan kənd sakini Vəliyeva Suğra İlyas qızı tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. O bildirir ki, tanımadıqları 3 nəfər şəxs onu aldadaraq, "Bank Respublika"dan adına kredit götürərək, mənimsəyiblər:**

"Mən, Vəliyeva Suğra İlyas qızı, yazaraq sizdən xahiş edirəm ki, problemimi işıqlandırasınız. Məlumat verim ki, bir gün evimizə 3 nəfər şəxs yaxınlaşdı. Biri Rəhimov Əkbər Tarel oğlu, digər ikisi isə Astara rayon, Pensər kənd sakinləri idilər. Həmin vaxt bütün ailə üzvlərim evdə idi...

Sonradan bildik ki, həmin bu 3 dələduz kəndin yarısını aldadıblar. Bu 3 şəxs evlərin qapısını döyərək, insanları aldadaraq, adlarına bankdan pul götürürlərmiş. Onlar bizim də cahilliyimizdən istifadə etdilər. Şəxsən mənə dedilər ki, banka gedəndə de ki, dərzi işi üçün pul götürürəm, ödəniş isə sizə aid olmayacaq, onu biz özümüz həll edəcəyik.

Beləliklə, 100 manat qarşılığında bankdan onlar deyən məbləği götürdüm. Sonradan bank pulunu istəyəndə isə, təşvişə düşdük. Banka müraciət etdikdə haqlı olaraq bildirdilər ki, "100 manatı alıb yeyəndə fikirləşmirdiniz ki, belə olacaq?!".

Bu işin üzərindən 11 il ötüb. İşə düzəlmişəm, indi də bank aldığım maaşın 50 faizini tutur, mənə demək olar ki, heç nə qalmır. Mən cahil olmuşam, aldanmışam. Fikirdən şəkər xəstəsi olmuşam. Özüm hazırda kirayədə qalıram.

Mən sizin sayt vasitəsilə Cənab Prezidentdən və onun xanımından xahiş edirəm ki, göstəriş verin, bank kredit borcumu silsin. Mən o pulu yeməmişəm, dələduzların qurbanı olmuşam.

"Bank Respublika"nın rəhbər heyətindən də xahiş edirəm ki, dələduzluqla qarşılaşdığımı nəzərə alsınlar, əmək haqqımın 50 faizini tutmasınlar. Xəstə adamam, iynə-dərmana pul çatdıra bilmirəm".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

# Gəncə sakini işsizlikdən şikayətçidir

## "9 aydır ki, mənə görə heç bir iş tapılmır"

**Gəncə şəhər sakini Quliyev İlqar Bayram oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, işsizlikdən əziyyət çəkir:**


AZƏRBAYCAN RESPUBLİKASI - REPUBLIC OF AZERBAIJAN
şəxsiyyət vəsiqəsi - IDENTITY CARD
SOYADI / SURNAME
QULİYEV
ADI / GIVEN NAME
İLQAR
ATASININ ADI / PATRONYMIC
BAYRAM OĞLU
CİNSİ / SEX — VƏTƏNDAŞLIĞI / NATIONALITY — DOĞULDUĞU TARİX / DATE OF BIRTH
K/M — AZƏRBAYCAN — 18.10.1986
FƏRDİ İDENTİFİKASİYA NÖMRƏSİ / PERSONAL NO
ETİBARLILIQ MÜDDƏTİ / DATE OF EXPIRY — VƏSİQƏ SAHİBİNİN İMZASI / HOLDER'S SIGNATURE
04.10.2033
04.10.2033

AZƏRBAYCAN RESPUBLİKAS
ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİR
DÖVLƏT MƏŞĞULLUQ AGENT
GƏNCƏ-DAŞKƏSƏN REGİONAL MƏŞĞU

AZ-2000, Gəncə şəhəri,
M.Xələfov küçəsi., 122

"20" iyun 2024 il

"Mən, Quliyev İlqar Bayram oğlu, yazaraq bildirim ki, 2024-cü ilin 24 iyun tarixindən Dövlət Məşğulluq Agentliyində işsiz kimi qeydiyyata düşmüşəm. 9 aydır ki, mənə görə heç bir iş tapılmır.

Vaxtilə avtobus sürücüsü işləmişəm. İki övladım var, biri autizm xəstəsidir, digəri isə azyaşlıdır.

Belə başa düşürəm ki, Dövlət Məşğulluq Agentliyi özəl müəssisələrdə işlə təmin edə bilmir.

Uşağa dövlət tərəfindən ayrılan 250 manat "əlil pulu" onun bütün ehtiyaclarını qarşılamır. Mütləq ailə başçısı kimi işləməliyəm. Aztəminatlı ailələr üçün ayrılan müavinəti də ala bilmirəm. Sizin sayt vasitəsilə Dövlət Məşğulluq Agentliyindən xahiş edirəm ki, məni öz sənətimə uyğun işlə təmin etsin".

Qeyd edək ki, Dövlət Məşğulluq Agentliyi İlqar Quliyevin şikayətinə reaksiya verib. Qurumun saytımıza açıqlamasını olduğu kimi dərc edirik: "Gəncə sakini İlqar Quliyev 01.07.2024-cü ildən işsiz şəxs kimi qeydiyyatdadır. Məşğulluq imkanları qiymətləndirilib və bunun əsasında 21 noyabr 2024-cü il tarixdə vətəndaşa Simurq Company-də sürücü işi təklif olunaraq məlumatları işəgötürənə yönləndirilib. Lakin işəgötürən tərəfindən İlqar Quliyevin işə qəbulundan imtina olunub. Aktiv vakansiyalar barədə məlumat əldə etməsi üçün vətəndaş yenidən Filiala dəvət ediləcək".

**Jalə FAMİLQIZI**

Hürriyyət

Ölkə

SİZİN ÜÇÜN QƏZET

№12 (3351) 8 Aprel / 2025-ci il

www.hurriyyet.az; / hurriyyet@mail.ru



# Zəbt olunan torpağına daxil olmaq istədi, döydülər, sonra isə...

## Hakimi Elşən Təbrizoviç Masallı sakini Sabit Əliyevi qondarma itihamla həbs etməkdə ittiham olunur

**Bakı şəhəri, Binəqədi rayonu, R.Allahverdiyev küçəsi, döngə 7, ev 4-də yaşayan Şükürov Əlvan Əliheydər oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə, eləcə də Baş Prokurorluğa, Ədiliyyə Nazirliyinə, Məhkəmə Hüquq Şurasına və digər aidiyyəti qurumlara müraciət edən Ə.Şükürov Masallı Rayon Məhkəməsinin hakimi Elşən Təbrizoviçdən şikayətçidir:**

**"Cənab Prezident!**

Diqqətinizə çatdırım ki, Masallı Rayon Məhkəməsinin hakimi Elşən Təbrizoviç Çevik Polis Alayının təqaüddə olan əməkdaşı Sabit Əliyevi bu ilin Novruz bayramı axşamı qondarma itihamla (C.M 221.3-ci maddə) həbs etdi.

İstintaq tərəfindən irəli sürülən ittiham aktına əsasən, guya, Sabit Əliyev 10.09.2023-cü il saat 17 radələrində Masallı rayonu, Qəzvinoba kəndində "ictimai asayişi kobud surətdə pozub, ətrafdakı şəxslərə açıq hörmətsizlik edib, zor tətbiq edib". İddia olunur ki, "Sabit Əliyev hadisə yerinə gələrkən məqsədi birbaşa zərəçəkənləri alçaldıb söymək olub"".

Şikayətçinin sözlərindən belə aydın olur ki, S.Əliyev Qəzvinoba kəndindəki ona məxsus torpaq sahəsinin giriş hissəsinə qohumu Əliyeva Xədcənin və digər ailə üzvlərinin dəmir darvaza qoymasına etiraz edib. Ona görə ki, həmin darvaza onun torpaq sahəsinə daxil olmasına maneə yaradıb. Bu səbəbdən, tərəflər arasında münaqişə yaranıb və ittiham aktına əsasən, "xuliqanlıq edən Sabit Əliyev qohumu Xədicə Əliyevaynı itələyib, onun qızı Sevil Şükürovaya isə bədən xəsarəti yetirib".

Şikayətçi Şükürov Əlvan Əliheydər oğlu isə iddia edir ki, ümumiyyətlə, S.Əliyev kimsəyə qarşı kobudluq etməyib. Onun sözlərinə görə, hadisə yerində olan video-görüntülər də bunu təsdiq edir:

"Birincisi, hadisə yerinin video-görüntüsündən də aydın olur ki, ətrafda maraqlı tərəflərdən başqa, heç kəs yoxdur. Yəni hadisə yeri "ictimai yer" deyil. Küçədə bir adam belə, yoxdur. İnsanlar kənddən şəhərə köçüb. Təkcə bu hal Sabit Əliyevə qarşı cinayət tətbiqinin qisas məqsədli, qərəzli olduğunu təsdiq edir. Başqa sözlə, bu hal yoxdursa, deməli, döymə, söymə, evi dağıtma kimi davranış xuliqanlığın tərkibini yaratmır.



İkincisi, Sabit Əliyev munaqişə zamanı bir dəfə belə, kimsəyə əl qaldırmayıb. O, başa düşüb ki, ona "torba tikməyə" çalışırlar.

Üçüncüsü, video-görüntüdən də bəlli olur ki, S.Əliyev kiməsə zərər verməyə deyil, öz zəbt olunan həyətinə daxil olmağa cəhd edir. Demək, onun məqsədi yalnız pozulmuş mülkiyyət hüququnun bərpasına yönəlib. Zəbt olunmuş həyətində qanunsuz tikilmiş evin pəncərəsindəki şüşəni sındırmağı və ya dəmir darvazanı açmağı həmin evi tikən şəxslərin "mülkünə ziyan vurmaq" kimi qəbul etmək olmaz. Çünki mülkiyyət qanununa əsasən, cinayət yolu ilə əldə olunanlar mülkiyyət sayıla bilməz.

Odur ki, 10 il ərzində Xədicə Əliyeva və onun qızlarının cinayət əməllərinin qarşısını almayan, əksinə, bundan bəhrələnən hüquq mühafizə orqanları özləri məsuliyyətə cəlb olunmalıdır.

Digər tərəfdən, video-görüntüdə də aydın şəkildə əks olunur ki, Xədicə Əliyeva və qızları Sabit Əliyevə qarşı törətdikləri qanunazidd, zorakılıq əməlləri zamanı, özlərini qəsdən yıxaraq xəsarət almışlar.

Dövlət orqanlarının indiyədək Sabit Əliyevin və ailəsinin pozulmuş hüquqlarını bərpa etmədiyi bir yana, hadisə yerində ona qarşı olunan zorakılıqlara da göz yumulub. Hansı ki, prokurorun himayə etdiyi dörd nəfərdən ibarət mutəşəkkil qrup Sabit Əliyevi şərləyərək, qarşılarında "diz çökməyə məcbur edib".

Yeri gəlmişkən, bu şəxslər "şəhid ailəsi" statusundan bəhrələnib, rayon ərazisində bütün imtiyazları əldə edib, ən səmərəli torpaqları ələ keçiriblər. Onlar rayon və kənd sakinlərini şantaj edir, torpaqlarını zəbt edir. Hətta öz qardaşlarını belə şərləyərək evdən qovub, onu qucağındakı uşağıyla döyüb həbs etdirib. Bu şəxslər əllərində gəzdirdikləri benzinlə müvafiq qurumları "özlərini yandırmaqla" şantaj edir, beləliklə istədiklərini əldə edirlər. İki dəfə muhakimə olsa da, heç bir nəticə çıxarmayıblar. Nəticədə, Novruz bayramı gecəsi bu dörd nəfərin saxta itthamı əsasında hakim Elşən Təbrizoviç Sabit Əliyevi həbs edib".

Əlvan Şükürov deyir ki, əslində, Sabit Əliyev zərərçəkən şəxsdir, çünki qarşı tərəfin hücumuna məruz qalıb və bunu təsdiq edən görüntülər var: "Hadisənin video-görüntüsündən aydın olur ki, 10.09.2023-cü il, saat 17 radələrində Sabit Əliyev bir-neçə yaxın qohumu ilə Qəzvinoba kəndindəki üzərində sahibliyi, istifadə və mülkiyyət hüququ olan həyətinə daxil olmağa cəhd edir. Bu zaman həmin torpağı zəbt edərək, oraya dəmir darvaza qoymuş, ev tikmiş Sevil Şükürova digər iki qohumu ilə Sabit Əliyevə yaxınlaşıb, nəlayiq söyüşlərlə, zor tətbiq etməklə, ona mane olmağa çalışıb. Hadisə zamanı ittham olunan tərəf bir dəfə belə, kimsəyə əl qaldırmayıb, söyüş söyməyib. Əksinə, Sevil Şükürova və digər qrup üzvləri hadisənin əvvəlindən axırına kimi S.Əliyevi döyməyə, söyməyə davam ediblər.

Masallı hüquq muafizə orqanları rəhbərlərinin günahı ucbatından, bu rayonda 10 ilə yaxındır ki, məlum dörd nəfərdən ibarət qrup sakinlərin hüquqlarını pozur. İndiyədək 70-ə yaxın məhkəmə prosesi keçirilib, insanlar məhkəmə yollarında zülm çəkib. Hətta yaşlı insanların evləri gecə yarısı dəfələrlə daşa tutulub, onların mulkiyyəti oğurlanıb. Heç də təsadüf deyil ki, Sabit Əliyevin əmisi də bu kimi dəhşətlərə dözməyərək, ürəyi partlayıb.

Xədicə Əliyeva və digər qrup üzvlərinin törətdikləri cinayət əməlləri ilə bağlı dəfələrlə şikayət olunsa da, hər dəfə cinayət işinə başlanılmasından imtina qərarı verilib.

Bu baxımdan, "Hürriyyət" qəzeti vasitəsilə cənab Prezidentdən və digər aidiyyəti qurumların rəhbərlərindən xahiş edirik ki, Sabit Əliyevin haqsız yerə həbs olunması və Xədicə Əliyeva və digər qrup üzvlərinin qanunsuz əməlləri ilə bağlı araşdırma aparılması üçün müvafiq qurumlara tapşırıq verilsin. Biz, nəhayət ki, Masallı rayonu, Qəzvinoba kəndində ədalətsizliklərə son verilməsini istəyirik".

**Hazırladı: Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

# Astarada 540 ailəyə qarşı dələduzluq

## Bank əməkdaşlarının milyonluq fırıldağı...

**Astara rayonu, Şiyəkəran kənd sakini Fətəliyeva Şəlalə Zöhrab qızı tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, 2014-2015-ci illərdə qonşuluqda yaşayan Elnur adlı şəxs Tacirə Orucəli qızı və tanışları Talıbov Elşən Talıb oğlu ilə birgə onları aldadaraq, bankdan adlarına külli miqdarda kredit götürüblər:**

"Mən, Fətəliyeva Şəlalə Zöhrab qızı yazaraq xahiş edirəm ki, problemimi işıqlandırasınız.




Bildirim ki, uşaqlarımı atasız böyütmüşəm. Çox əziyyətlər çəkmişəm. Ali savadım yoxdur. Oğlumun biri xaricdə yaşayır, xəstədir. Digəri hazırda əsgərlikdədir. Üçüncü oğlumun isə beli sınıb, əlildir.

Məlumat verim ki, yuxarıda adlarını çəkdiyim dələduzların toruna təkcə mən düşməmişəm, mənim kimi 540 ailə də onların fırıldaqçılığının əziyyətini çəkir. Hansı ki, bu şəxslər "Bank Respublika"dan adımıza külli miqdarda pullar götürüblər, bizim isə bundan xəbərimiz olmayıb.

Həmin şəxslərdən biri ölüb, biri isə tutulub. Digərləri isə hazırda kənddə yaşayırlar.

Qeyd edim ki, başımıza gələnlərin hamısı kasıbçılıqdandır. Deməli, 2014-2015-ci illərdə qonşum Elnur və Tacirə bizə təklif etdilər ki, bir yer var, gedək ora, siz sadəcə sənədə qol çəkəcəksiniz, bunun qarşılığında hərənizə 100 manat veriləcək.

Ağlımıza gəlməyən başımıza gəldi. Gedib qol çəkdik, çıxdıq. Amma hər birimizə, söz verildiyi kimi 100 manat yox, 50 manat verildi. Həmin vaxtı başa düşmədik ki, bu dələduzlar bizim adımıza bankdan pul götürür. Biz soruşanda isə bank əməkdaşı dedi ki, müştəri yığmaq üçün sizin adlarınızı qeyd edirik. Biz də inandıq.

Sonradan pullar ödənilmədiyi üçün bank bizi məhkəməyə verib. Heç bu məhkəmələrdən də xəbərimiz olmayıb. Sadəcə, kim kartla dövlətdən maaş, pensiya və müavinət alırdısa, həmin şəxslərin puluna bank əl qoymuşdu.

Mən də uşaqlarımı atasız böyütdüyüm üçün dövlət tərəfindən verilən yardımın bir hissəsini hazırda bank tutur. Kimlərinsə dələduzluqla alıb yediyi pulu hazırda bank mənə ödətdirir. Kimə, hara müraciət edəcəyimi bilmirəm".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları çəkilən şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

# Diyə

Turalgil ailədə iki qardaş, bir bacı idilər. Tural sakit, həlim xasiyyətli, dalaşmağı sevməyən, dostcanlı, canıyanan biri idi. Əsas hobbisi kitab oxumaq, təbiət qoynunda təklikdə gəzmək, oğlan uşaqlarına bir o qədər də xas olmayan gülə-çiçəyə vurğunluğu idi. Buna baxmayaraq, qohum-qardaş Turalı daha çox sevirdilər.

**Böyük qardaşı Turalın tam əksinə, dalaşmağa meylli, "qabağından yeməyən", tez özündən çıxan biri idi. Ailənin ilki olduğundan xeyli ərköyün böyümüşdü. Necə deyərlər, yetənə yetir, yetməyənə bir təpik atırdı. Tural qardaşından on yaş kiçik idi, arada bacıları doğulmuşdu.**

**Hər şeyin yaxşı getdiyi günlərin birində Turalgilin ailəsinə çox dəhşətli bəd xəbər gəldi. Turalın böyük qardaşını naməlum şəraitdə kimlərsə qətlə yetirmişdi. Bu hadisəni kimin törətməsi naməlum idi. Şahidlər yox idi. Hadisədən çox gec xəbər tutulduğundan hadisə yerində də kiməsə rast gəlinməmişdi. Turalgilin ailəsi qatilin tapılması üçün çox çalışsalar da, istintaq bir iş görə, qatilin kim olmasına aydınlıq gətirə bilmirdi. Bunun əvəzinə, gündə bir şayiə yayılırdı.**

***(Əvvəli ötən saylarımızda)***



...Turalı bir narahatlıq bürüdü. Bəlkə İncinin anası qızlarını kəndli bir oğlana layiq bilmədilər. Bu fikir bir anlığa onun beynini zəbt etdi. Az qaldı Turalın ürəyi partlasın. Bayaqdan ürəyindəki sevinc ağır bir pərtlik və kədərlə əvəzləndi.

İnci də Turalın anidən dəyişdiyinin fərqinə vardı. Gözlərini qaldırıb anasının üzünə baxanda elə bil ildırım vurdu. Anasının üzündə sanki "bu iş heç cür baş tuta bilməz" cümləsi yazılmışdı.

Anasının qəfil dəyişməsi İncini də narahat etməyə başladı. Ana, nə olub, haransa ağrıyır? Bəlkə təzyiqin qalxıb? Şəkərini yoxlamısan bu gün?... Əslində, İnci bütün bu sualları mexaniki verirdi və aldığı cavabın onun Turalla gələcəyinə təsir edəcəyindən qorxmağa başlamışdı. Anası ağzını açıb bir kəlmə də danışmadı. İncinin sualları cavabsız qaldı.

Anası üzünü pəncərəyə tutdu, gözləri kədərli-kədərli uzaqlara dikildi. Elə bil, keçmişdə baş verən hansısa bir hadisəni xatırlayırdı. İnci bir daha anasından nəsə soruşdu. Anası onu eşitmirdi, qulaqları guruldayır, gözləri qaranlıqlaşırdı. İnci anasının halının həqiqətən də pisləşdiyini gördü. Turaldan təcili yardım çağırmağı xahiş etdi, özü isə anasına həmişə qəbul etdiyi dərmanlardan verib, atasına zəng edərək, anasının vəziyyəti ilə bağlı məlumat verdi.

Tural İncinin atası ilə üzüzə gəlməyi hələ tez hesab edirdi. Bu tərəfdən də İncinin anasının belə vəziyyətə düşməsində qeyri-ixtiyari özünü günahkar bilirdi. Getməkdən başqa yol görməyən Tural təcili yardım həkimləri içəri girib xəstəni müayinə etməyə başlayanda, İncidən üzr istəyərək, onları tərk elədi.

İncinin anasının təzyiqi yüksəlmiş, şəkəri də oynamışdı. Həkim xəstənin əsəb sarsıntısından bu hala düşdüyünü deyib, lazım olan məsləhətləri verdi. Çox keçmədi, İncinin atası da özünü evə çatdırdı. Artıq həyat yoldaşı özünə gəlmişdi. İncinin anası evə göz gəzdirib Turalı görmədi, xeyli sakitləşdi. Ürəyində "Allahım, bu nə işdi, biz düşdük?!"dedi.

Sabahısı gün anası İnci ilə danışmaq istədiyini deyəndə, qızın ürəyi sancdı. Çünki anasının deyim tərzindən ciddi, xoşagəlməz bir söhbət edəcəyini bilmək o qədər də çətin olmadı. Anası İnciyə "mənim gözəl balam, bu iş baş tutan deyil, sən Turaldan ayrıl. Bilirəm, bu, sənin üçün çox çətin olacaq, amma həyatda bundan da böyük çətinliklər var", - dedi. İncinin anasından eşitdiklərinə inanmağı gəlmədi. Axı, ilk baxışdan anası Turalı bəyənmişdi. Yaxından tanış olduqdan sonra daha da dərindən sevəcəklərdi...

İnci Turalsız yaşaya bilməzdi. Odur ki, "yox, ana, mən ondan başqası ilə ailə həyat qura bilmərəm. Onsuz yaşamağı ağlıma belə, gətirə bilmirəm. Axı, niyə belə düşünürsən?! Turalın nəyi xoşuna gəlmədi? Axı, görən kimi gözlərindən gördüm ki, Turalı çox bəyəndin. Nə oldu birdən-birə? Fikirini nə dəyişdirdi?", - deyə cavab verdi. Anası göz yaşlarını saxlaya bilmirdi: "İnci, qızım, dedim, olmaz, bil ki, olmaz". İnci əl çəkmədi. Ürək ağrısı ilə, yalvarışlı bir səslə "axı, niyə? Nə üçün olmaz?", - dedi. Anasının bir sirr saxladığı gün kimi aydın idi. O, İncinin məlumatı olmayan nələrisə bilirdi. İnci yenə təkid etdi: "Mən səbəbini bilməliyəm. Yoxsa nəyə görə Turaldan ayrılım ki?!". Anası çox dedi, İnci eşitmək belə istəmədi. Onun həqiqəti öyrənməyincə, anasından əl çəkmək fikri yox idi. Anası nə qədər cəhd etsə də, İncini başından edə bilmədi.

Ertəsi gün İnci dərsə getmədi. Turaldan imtinanın səbəbini bilmədən necə gedəydi?! Turala ailəsinin ondan imtina etdiklərini necə deyə bilərdi?! Yox, bu, mümkün deyildi!

İnci anasına iltimatum verdi: "Əsl səbəbi deməsən, universitetə getməyəcəyəm".

Tural da İncinin dərsə gəlməsini istəmirdi. Qorxurdu ki, İnci "yox!" xəbəri gətirər. Onda Tural nə edərdi?!.

Tural İncini universitetdə görməyəndə xeyli sakitləşdi. Ürəyində "yəqin öz aralarında nəsə müzakirə edəcəklər" deyərək, özünə təsəlli verdi.

İncigildə vəziyyət çox gərginləşmişdi. İnci yavaş-yavaş depressiyaya düşür, anasından Turalla bağlı fikirlərinə aydınlıq gətirməyi tələb edirdi. Başqa bir yol qalmamışdı. İncinin düşdüyü acınacaqlı vəziyyət anasını narahat etməyə başladı: "Yaxşı qızım, sakit ol, hər şeyi açıb deyəcəm. Ancaq söz ver ki, bir dəlilik etməyəcəksən, Turala heç nə deməyəcəksən". İnci daha da maraqlanmağa başladı. Axı, ilk dəfə gördükləri Turalla bağlı onlarda nə kimi bir məlumat ola bilər ki? "Narahat olma, ana, səni dinləyirəm, uşaq deyiləm ki", - deyə cavab verdi. İnciyə elə gəlirdi ki, ciddi bir səbəb yoxdur, ola bilsin Turalın hansısa bir hərəkəti anasına xoş gəlməyib, ya da onun "rayonlu" olmasına görə bu işə razılıq vermir. Amma bunların heç biri ciddi bir səbəb deyildi. Övladın xoşbəxtliyi müqabilində belə əhəmiyyətsiz şeylərə necə diqqət etmək olar ki?!

...Anası xeyli susdu. Sonra dərindən bir ah çəkib, "mənim yazıq balam...", - dedi və ağlamağa başladı. "Ana, nə olub, danış da. Niyə ağlayırsan? Axı, Turalın nəyi xoşuna gəlmədi? Niyə onunla həyat yoldaşı olmağımı istəmədin? Səbəb nədi, de, bilim də", - deyə İnci sual dolu baxışlarla gözünü anasına dikdi.

Anası gözlərini sildi. Durub özünə mətbəxdən bir stəkan su gətirdi: "İnci, qızım söz ver ki, bir dəlilik etməyəcəksən, hər şeyi sakit qarşılayacaqsan. Yoxsa bir kəlmə də danışmaram". İnci and-aman edib, anasını danışmağa inandıra bildi. Anası dedi: - "Qızım, əslində Turallgillə biz eyni kənddənik. Sən o vaxt anadan olmamışdın. Rəhmətlik qardaşınla Turalın qardaşının arasında dalaşma olmuşdu. Turalın qardaşı bıçaqla sənin qardaşına hücum etmişdi. Qardaşın Turalın qardaşının əlindəki bıçağı ondan almaq istəyib. Bu zaman süpürləşiblər və necə olubsa bıçaq Turalın qardaşının ürəyinə sancılıb. Sənin qardaşın Turalın qardaşını öldürüb. Bunu görən olmamışdı. Amma gec-tez bu işin üstünün açılacağını bilirdik. Hətta müstəntiq bir necə dəfə qardaşını dindirmiş, bu hadisəni qardaşının törətdiyini demişdi. Atan yeganə oğlunun həbsxanaya düşməsinə heç cür razı olmadı. Ona görə, ibtidai istintaqda qardaşınla bağlı araşdırmanın dayandırılması üçün xeyli rüşvət verdi və müstəntiqin məsləhəti ilə gecəykən kənddən köçdük. Şəhərdə ünvanımızı hamıdan gizlətdik. Bilirdik ki, Turalın ailəsi bilsə, mütləq bizdən qisas alacaqlar. Biz yeganə oğlumuzu itirmək istəmirdik. Hətta atan tanış tapıb bizim ad-soyadımızı belə dəyişdirdi. Mümkün qədər o rayondan olan insanlarla uzaq dururduq. Daha çox ev həyatı keçirməyə çalışırdıq. Nadir hallarda bazar-dükana özümüz gedirdik. Sonra sən doğuldun. İllər keçdikcə hər şeyin yaddan çıxacağına ümid edirdik. Qardaşının da bəxti gətirmədi. Bir gün avtoqəza nəticəsində həyatını itirdi. Sən bizim yeganə övladımızsan. Bizi həyatda saxlayan yeganə səbəbsən. Sən Turalla ailə quracağın təqdirdə bu problem necə həll olunacaq? Onlar qisas almaqdan bir an da dayanmayacaqlar. Turalgilin ailəsi bunu bilsə, heç Turalı da bağışlamazlar, sənə də sahib çıxmazlar. Ona görə, bu sevdadan vaz keç, alınan deyil".

Əvvəl İnci nə deyəcəyini bilmədi. Ailələrinin belə bir sirri uzun illər ondan gizli saxladıqlarına məəttəl qalmışdı. Qısa çaşqınlıqdan sonra İnci ayağa qalxdı: "Yox ana, bu mənim Turaldan ayrılmağım üçün bir səbəb ola bilməz. Ölərəm, amma Turaldan ayrılmaram".

İnci Turalsız yaşaya bilməzdi. Odur ki, "yox, ana, mən ondan başqası ilə ailə həyat qura bilmərəm. Onsuz yaşamağı ağlıma belə, gətirə bilmirəm. Axı, niyə belə düşünürsən?! Turalın nəyi xoşuna gəlmədi? Axı, görən kimi gözlərindən gördüm ki, Turalı çox bəyəndin. Nə oldu birdən-birə? Fikirini nə dəyişdirdi?", - deyə cavab verdi. Anası göz yaşlarını saxlaya bilmirdi: "İnci, qızım, dedim, olmaz, bil ki, olmaz". İnci əl çəkmədi. Ürək ağrısı ilə, yalvarışlı bir səslə "axı, niyə? Nə üçün olmaz?", - dedi...

***(Ardı var)***

**AZAD**

# Fatmayı kəndinin səngərləri...

**Xəzər dənizi sahillərindən 1-2 km aralı olan, qədim yurd ocaqları Görədil və Pirşağı kəndlərinin yaxınlığında, beynəlxalq əhəmiyyətli karvan yolları üzərində yerləşən Fatmayı kəndi "Pir Sarvan dağı", "Siyan yeri", "Güllü təpə", "Yekə dağ"....ilə əhatələnib, bu kənddə iki "Şah Abbas karvansarayı" var. Məhz bu coğrafi məkanlar və tarixi abidələr 1918-ci ilin mart ayında hay-daşnak, ingilis-rus hərbi-siyasi dəstələrinin hədəfinə çevrilmişdir. Həmin dövrdə Fatmayı kəndində 150-yə qədər ev olub, əhali təsrrüfat işləri ilə, bağçılıqla, heyvandarlıqla məşğul olub, əsas ticari vərdişləri Abşeron bölgəsi üzrə təmiz xörək duzu satmaq idi, "Babəli şoru"ndan, "Qızıl nohur"dan çıxaradılar...**



## ("Abşeron bölgəsinin soyqırımları" silsiləsindən)

XX əsrin əvvəllərində rusingilis siyasəti nəticəsində Bakı şəhərində hakimiyyəti ələ keçirən hay kilsəsi və daşnak silahlı dəstələri 1905-1906-cı və 1918-1919-cu illərdə Abşeron yarı madası kəndlərində kökənli Türk-Müsəlman əhalisinə qarşı amansız soyqırım faciələrini törətmiş, zəngin maddi sərvətlər hesabəna güclü bir "erməni" cəmiyyətinin yaradılmasına nail olmuşlar.Bu qanlı səhifələr sırasında Bakı Xalq Komissarları Sovetinin hay rəhbərləri (S.Şaumyan, B.Avakyan, T.Əmiryan, Q.Korqanyan....) 1918-ci ilin avqust ayının 17-də Fatmayı-Novxanı kəndləri istiqamətində güclü hücuma keçmiş, eləcə də, yaxınlığdakı Pirşağı, Digah, Goradil, Kürdəxanı...kəndlərində də qanlı döyüşlər getmiş, avqust ayının 31-də Binəqədi kəndi yüksəkliyində ağır vuruşlar olmuşdur.

Digah kəndində qətliamları törətdikdən sonra Fatmayı kəndinə yönəlik hücuma keçən hay daşnakları kəndin girəcəyində, bağlara gedən yolun istiqamətindəntoplardan, tüfənglərdən atəş aça-aça daxil olmağa cəhd etmişlər. Bu barədə həmin hadisələrin şahidlərindən olmuş kənd sakinlərindən Mirzəqulu Rzalı oğlu (1879-1929), Gülreyhan Kərbəlayı Novruz qızı (1881-1964), Məzahir Mirzəqulu oğlu Əliyev (1905-1983)....söyləmişlər. Və deyirdilər ki, hay quldurları kəndin altındakı Yekə dağın üstündə toplarını qurmuşdular, Dugah yolunun üstündəki neft quyularının (Fatmayı kəndindən 1 km aralıda) arası ilə hərəkət edərək, silahlardan od saçaraq hərəkət edirdilər.

Xəbər kəndə çatanda ağsaqqallar və yerli müdafiə qüvvələri dinc əhalini at arabaları ilə, piyada Bağlara göndərdilər. Bu işdə Şeyx Ağahüseyn Mirzəhüseyn oğlu (1886-1944), Molla Hacıbala, Molla Həci Bala (1920-ci illərin əvvəllərində məşhur gülüş ustası, Azərbaycanın Xalq artisti Nəsibə Zeynalovanın (1916-2004) anası Hüsnüyyə xanımla ailə qurub), kəndin igid oğllarından Əlizaman (1885-1938), Rəşid Paşa oğlu (1930-cu illərdə Cənubi Azərbaycana keçmişdir)....yaxından iştirak ediblər.

Digah kəndində amansız qanlı olayların baş verməsinə bir səbəb kimi ərazinin coğrafi mövqeyi də təsir etmişdir (kənd çökəklikdə yerləşir), Fatmayı kəndinin vaxtında müdafiə olunmasına da ərazinin yüksəklikdə, hündür yerdə, dənizə yaxın yerdə qərarlaşması da rol oynamışdır. Camaatı dənizsahili bağlara göndərdikdən sonra ( və əgər düşmən kəndi işğal etsəydi camaatı gəmi ilə Həştərxana aparılması nəzərdə tutlmuşdu) bir dəstə kənd ağsaqqalları əllərində "Qurani-Kərim" barışıq məqsədi ilə, qan tökülməməsi üçün hay-daşnak dəstələrinin qarşısına çıxmışlar (yaşı 200 ildən çox olan "Yeni qəbirstanlığ"ın qarşısında, Pirşağı kəndinə ayrılan yolun üstündə). Amma, "erməni"lər atəş açmaqdan çəkinməmiş, güllələri yağdırmaqda davam etdirmişlər. Bu güllə "yağışı" altında hərəkət edən və əlində Müqəddəs Oxu Kitabını tutan molla Həci Balaya heç bir xətər/güllə dəymməmişdir....

Qabağda Molla Həci Bala əlində Müqəddəs Kitabı tutmuş, Ayələri oxuya-oxuya gedirdi...Elə bu vaxt...Pir Sarvan dağı istiqamətindən hay dəstələrinə tərəf göylərdən uçan top atəşləri açıldı...fasiləsiz...və üç bölük (hər bölükdə 25 döyüşçü) süvari atlıları Fatmayı kəndinə daxil oldular....onlar qardaş Osmanlı Türküyəsinin əsgər və zabitləri idi, Şövqü paşa başda olmaqla....qanlı bir cəbhə açıldı, amansız düşmən üzərində yenildilər, sağ qalanları Binəqədi və Biləcəri kəndlərinə qədər qovub çıxardılar...

Azərbaycan xalqının Böyük oğlu H.Z.Tağıyevin səyi ilə Türk-Müsəlman dünyasının imdadına yetişən Şövqü əfəndi və heyəti kənd içində Xaloğlu adı ilə tanınan imkanlı bir şəxsin evində və həyətində 7-10 gün qaldıqdan və düşmən qüvvələrinin hücumunu yox edəndən sonra, dənizdən gəmi vasitəsilə gəldikləri yolla geri qayıtmışlar. Məzahir Mirzəqulu oğlu xatırlayırdı ki, bir gün Şövqü əfəndi kəhər atın üstündə şux və vüqarla oturanda ona dedim ki, Paşam, bu cür dayanırsız, əyilmirsiz yağı gülləsinə tuş ola bilərsiz...

Cavabını qururla bildirdi:- Yavurum, gavur gülləsi Türkə dəyməz....Sonralar , M.Mirzəqulu oğlunun ailəsində doğulan körpəyə Şövqü (1936-2005) adı qoyulmuşdur, amma hay-rus təqiblərindən qorunmaq üçün Şakir, deyə çağırılmışdır.

Qabağda Molla Həci Bala əlində Müqəddəs Kitabı tutmuş, Ayələri oxuya-oxuya gedirdi...Elə bu vaxt...Pir Sarvan dağı istiqamətindən hay dəstələrinə tərəf göylərdən uçan top atəşləri açıldı...fasiləsiz...və üç bölük (hər bölükdə 25 döyüşçü) süvari atlıları Fatmayı kəndinə daxil oldular....onlar qardaş Osmanlı Türküyəsinin əsgər və zabitləri idi, Şövqü paşa başda olmaqla....qanlı bir cəbhə açıldı, amansız düşmən üzərində yenildilər, sağ qalanları Binəqədi və Biləcəri kəndlərinə qədər qovub çıxardılar...

Bu döyüşlərdə Şəhid olan Türk əsgərləri döyüşlərin getdiyi yerə yaxın "Yeni qəbirstanlıq"da dəfn edilmiş,indi də böyük hörmətlə yad edilirlər.

Qoşa qəbirlərin sol cinahında da (5-10 m aralıda) yerli özünümüdafiə qüvvələrinin üzvlərindən Şəhid olmuş Baba Hacı Məhəmməd oğlu (1886-1918) dəfn edilib. Onun qardaşı Məşədi Məmmədhənifə (1870-1952) həmin hay qatilini taparaq Şəhidlərin qisasını almışdır.

Azərbaycan Xalqına və Cumhuriyyətinə qarşı amansız, birləşmiş düşmən cəbhəsi açmış dinsiz hay kilsəsi və hay-rus silahlı qüvvələrinin hücumunu dəf edərkən Osmanlı Türk Ordusunun 17 nəfər əsgər-zabit heyəti Şəhid olmuşdur, onların el adəti ilə dəfn olunmasını Fatmayı kəndinin xeyriyyəçisi Məşədi Məmmədhənifə Hacı Məhəmməd oğlu Havadar Abdul oğlu ilə birlikdə təşkil etmiş, onların Müqəddəs Ruh izlərini qoruyub saxlamışlar...

Pirşağı kəndindəki "Qızıl-Qum" pansionatı Məşədi Məmmədhənifənin bağının yerində tikilib...

1918-ci ilin fevral-avqust ayları ərzində Türk-Müsəlman kökənli Abşeron kəndlərinin bir çoxu (Xoca Həsən, Binəqədi, Pirşağı, Kürdəxanı, Maştağa, Buzovna, Mərdəkan, Zabrat, Əmircan...) 30 mindən artıq dinc sakini mənfur hay-rus-ingilis...birləşmələrinin silahlı qruplaşmaları tərəfindən amansız soyqırım faciələrini yaşamışlar...

**P.S.** Fatmayı kəndində güclü müqavimət və hücum əməliyyatlarına rəhbərlik etmiş Qazi Türk döyüşçülərindən biri və rəhbəri olan Şövqü Məhəmmədəli oğlu Qapançızadə (1894) 1920-ci ildən sonra Abşeron bölgəsində yaşamışdır. O, Türkiyənin İzmir vilayətindən olub, 5-ci Qafqaz İslam Ordusunun tərkibində gizir (bölük komandiri) kimi döyüşüb.

Şövqü Əfəndinin sonrakı həyatı Buzovna kəndi ilə bağlı olub. Bu kənddə mühasibatlıq edib, təsərrüfat işlərində çalışıb. 1923-cü ildə Mərdəkan kəndindən Gülzar Hüseynalı qızı (1905-1960) ilə ailə quran Qazi Əfəndinin 5 övlad böyüdüb - 4 oğlu (Şünasib (1925-1987), Şəfi (1931-1996), Şaiq (1933-2000), Şövkət (1940-2009) və bir qızı (Şadiyə (1928-1991) olub.

**P.S.S.** Dinsiz hay kilsəsinin və ibtidai insan-hay sürüsünün genetik-qan irsində kök salmış xəbis xislətinin dəyişilməz qalmasına bir nümunə kimi hazırda "Ermənistan Respublikası" adlanan qurumun "Milli Yığıncaqı" yerləşən binasının rəyasət heyəti hissəsinin arxa divarına vurulmuş "xəritə-maket"i göstərmək olar. Belə ki, həmin təsvirdə Azərbaycan Respublikası Gədəbəy rayonunun Başkənd kəndi bu qondarma qurumun "ərazisi" kimi göstərilib....

**Qismət YUNUSOĞLU**
**Bakı Dövlət Universitetinin müəllimi**

**Qeyd:** Yazının hazırlanmasında həm də Abşeron rayonu, Fatmayı kənd sakini Hacı Səyavuş Məzahir oğlu Əliyevin (1948) məlumatlarından istifadə olunmuşdur.

## Ana dili duası

**Ulılardan ulu Tanrım,**
**Dua edib yalvarırım,**
**Sənsən ümid, son pənahım**
**Təəssüflə, yana-yana**
**Baxıb xalqın bu halına -**
**Manqurt, kölə, qullarına.**
**Öz dilini bəyənməyib**
**Yad bir dili tərifləyib,**
**Sırıyaraq öz xalqına**
**Özün xoşbəxt sayır nadan!**
**Ulu Tanrı, ey Yaradan**
**Beləsinə ver ki, ağıl.**
**İnsansifət şeytan olub**
**Çıxartmasın xalqı yoldan!**
**Ulu Tanrım, ey Yaradan**
**Bu bəndənə de ki, - Ayıl!**
**Dillərin ən qədimini,**
**Zənginini, şirinini,**
**Qəşəngini, incəsini**
**Bəxş etmişəm Türk xalqına,**
**Şükr etməyir Tanrısına!**
**Görünür ki, körpə ikən**
**Anasının qucağında**
**Olub onun laylası da**
**Yad bir dildə, lisanında.**
**Köləliyə vurğunluğu**
**Vardır onun mayasında!**
**Anası da, atası da**
**Köləliyin buxovunu**
**Hələ tamam qırmayıbdır,**
**Azad insan olduğunu**
**Dərk eləyib qanmayıbdır!**
**Ucalardan uca Tanrım,**
**Dua edib yalvarırım: -**
**Elə et ki, bundan sonra**
**Bu tip, sayaq adamlar da,**
**Öz dilinin gözəlliyin,**
**Şirinliyin, zənginliyin**
**Başa düşüb dərk eləsin!**
**Dil bir xalqın kimliyinin**
**Vəsiqəsi, simgəsidir!**
**Ana dilə laqeydliyin,**
**Dərk etmədən kiçiltməyin,**
**Özgə dili yüksəltməyin -**
**Öz xalqına qəsd etməyin**
**İlk addımı pilləsidir!**
**Zaman-zaman gələcəkdə**
**Öz dilinin, kimliyinin**
**Özgə dilin mədəsində**
**Əriməsi, itməsidir!**
**Ulılardan ulu Tanrım,**
**Dua edib yalvarırım: -**
**Bu sevdaya düşənləri,**
**Dəbə, küyə gedənləri**
**İslah et ki, bundan belə**
**Candan sevib öz dilini**
**Övladların gülə-gülə**
**Ana dili məktəbinə**
**Usanmadan göndərsinlər,**
**İstədiyi yad dilləri**
**Hər bir zaman öyrətsinlər!**

***Mir Yəhya Yusifli***
***22.03.2025***

# Babildə qaranquş yuvası



**Fərid MURADZADƏ**

Müharibə dövrünün döyüşlərdə, qan-qadanın içində yoğrulub bərkimiş sərt qanunları, ölüm xofu, insanın sağ qalmaq uğrunda mübarizəsi, bir ömürlük psixoloji zədələri sülh dövrünün isə firavanlığı, asudəliyi, quruculuğu, abadlığı, yaradıcılığı, əmin-amanlığı kimi təsdiqlənmiş özünəməxsus qaydaları var.

Divarları güllə və mərmi qəlpələrindən dəlik-deşik olmuş yenicə daxil olduğu kiçik məhəllə mənzilində onun ilk diqqətini çəkən səliqəli şəkildə bir kənarda yığılmış yağlı boyalar, fırçalar və rəsm kağızları oldu. Heybətli döyüşçü uşaq marağı ilə tamarzı insan kimi rəsm ləvazinatlarına baxırdı. Uzun saçları enli çiyinlərinə tökülmüş ucaboy döyüşçü neçə illik yoldaşı olan silahını kənara tullayıb dağılmış, yaralanmış, yaralı uşaq arzuları kimi ayağı qırıq, üstündə güllə yerlərindən sıxıcı "bəzəkləri " olan yığcam kətilə çökdü. Bir andaca rəng qutularını açıb fırça ilə kağız üzərinə şəkil çəkməyə başladı.

Niyəsini özü də bilmirdi, amma nədənsə ağappaq kağızın üstünə bahar müjdəçisi olan qaranquş şəkilləri çəkirdi. Az sonra o, rəsm dünyasına qərq oldu. Rəssam xarabat içində xoşbəxtlik yaradırdı. Yağlı boyalara batırdığı fırça möhtəşəm bir yaz görüntüsü təsvir etmişdi. Tumurcuqlayan ağaclar, yamyaşıl çəmənlər, üfüqdən boylanan qızılı günəş şəfəqləri, gözəl bir bağçanın içində təsvir olunan kənd evi və eyvanda yuva qurmuş haçaquyruq qaranquşlar... Bu vəhşət içindəki insanın zəngin iç dünaysının təzahürü idi. Bu tablo bir insanın deyil, milyonlala insanın ürəyində yığılıb qalmış acı həsrətinin al-əlvan arzuları idi. Onun daxilində bir quruculuq hissi vardı. İnsan əli ilə viranəyə dönmüş torpaqları abadlaşdırmaq istəyi idi kağız üzərində təsvir etdikləri. Qaranlıqda çıraq idi onun quruculuq arzuları.

Neftlə zəngin bu torpaqlar neftdən çox qan qoxuyurdu. Qara qızıl qan qırmızı fəlakətə çevrilmişdi. Buralar vətəndaş və dini təfirqə fonunda hərb meydanına döndərilmişdi. Altmış il ölkəni çapıb-talayan BƏƏS partiyasının son nümayəndəsi ölkəni başlı-başına buraxıb qaçmışdı. Hər yer səfalət içində idi. Ölkədə xaos hökm sürürdü, lakin yenicə hakimiyyəti ələ keçirən müxalif qüvvələr işıqlı gələcək barədə vəd verirdilər. İllər sonra bir-birini didən, firqələrə, didişən qüvvələrə çevrilən, müxtəlif xarici qüvvələrə qarşı mübarizə aparan xalq nəhayət verilən vədlərin qarşısında silaha yox, inama sarılmağa başlamışdı. İnsanlar xoş rifaha can atırdılar. Bir neçə gün ərzində elə bil ölkədə nəsə dəyişmişdi. İnsanlar sosial rifahın yaxşılaşdırılması üçün səy göstərirdilər. Elə o da cani-könüldən səy göstərirdi.

Qaranquş rəssamın ən sevdiyi quş idi. Hələ uşaqlıqdan həmişə həsrətlə qaranquşları gözləyərdi. Onun üçün bahar ilk qaranquşun eyvanlarındakı ənənəvi yuvasına köçməsi ilə başlayardı. O gün onun qəlbi fərəhlə döyünərdi. Qaranquşlar onun uşaq dünyasına xoşbəxtlik gətirərdilər. İllər keçib yaşa dolsa da rəssam adətinə xilaf çıxmamışdı. İndi, nənəsi demişkən, daha yekə kişi idi, amma hələ də uşaqlıq illərindəki kimi qaranquşları gözləyərdi. Müharibə insanlar kimi quşları da burdan perik salmışdı. Qaranquşlar buranı çoxdan tərk etmişdilər.

O, illər sonra mənzərəsi insanı dəhşətə salan boz-bulanıq, dağıdılmış, viranəyə döndərilmiş, qan qoxuyan zəngin, amma səfalət içində can çəkişən bu yerlərə baxdıqca baharın ılıq günəş şüalarından həzz ala-ala illər boyu əlinə götürmədiyi fırça və boyaları götürüb kağız üzərində al-əlvan bir mənzərə yaratmışdı. Bu mənzərə viranəyə döndərilmiş ölkənin abadlıq simvolu idi. Uzun müddət silah tutan əllər, tətik çəkən kobudlaşmış barmaqlar həsrətində olduğu fırçanı ustalıqla sağa-sola çəkir, ağ kağızın üstünü bəzəyirdi. Rəssam sanki yeni bir səhifə açırdı. Ömrünün döyüşlərdə keçən qaranlıq illərini elə illərin arxasında buraxmaq istəyirdi. Ağ kağız, ağ səhifə yeni tarix, yeni gün, yeni başlanğıc idi. Kağız üzərinə çəkilən şəkillər, ona viranəyə dönmüş ölkənin yenidən qurulmasının rəmzi mənası kimi gəlirdi.

O, müharibə adamı deyildi, lakin həyatla mübarizə, insanın yaşamaq uğrundakı döyüşkən ruhu, ruhuna hakim kəsilmiş dini inanc bağlılığı və allah sevgisi qədər də müqəddəs vətən eşqi onu silah tutmağa məcbur etmişdi. İndi isə döyüş yoxdur və o əskər deyil. İncə qəlbli, yaradıcı ruhlu, təxəyyülü rənglərin palitrası qədər zəngin, rəngarəng dünyanın içindən gələn rəssam idi. Çəkdiyi rəsmə baxdıqca ürəyi açılırdı. Sanki dünyanın ən məşhur rəsm əsərini yaratmışdı. Primitiv şəraitdə çəkilən əsər sənətkarlıq baxımından həqiqətən də möhtəşəm idi. İlk başlayanda sadəcə həvəs kimi çəkdiyi əsərə artıq başqa gözlə baxırdı. Bəs bu əsərin adı nə olsun? Azan səsi onu xəyallar dünyasından ayırdı. Ehhhg Gedim namazımı qılım.

İnsanlar dəstə-dəstə toplaşıb namaza hazırlaşırdılar. Gedə-gedə hamısının dili Allah deyən, amma ibadət formaları fərqli olan icmalara baxırdı və baxdıqca da dəhşətə gəlirdi. Axı illərlə elə bu ölkədə insanlar dini təfirqəyə görə bir-birini qırmadımı? Bu nədir, ay Allah? Niyə biz firqələrə bölünmüşük və nə üçün də hamımız özümüzü haqlı sayırıq? Axı biz hamımız əkbər olan, sübhan olan, rəhman və rəhim olan tək və şəriksiz sənə - Allaha ibadət edirik. Allahın bizə ehtiyacı yoxdur. Ona ehtiyacı olan bizik! Bəs Allah niyə belə edir? Axı o ədalətlidir! Axı biz niyə qədim insanlar kimi Allaha ucalan, yaxud da ucaltığımız bu körpünün inşasında qürura, mənəmliyə və xudpəsəndliyə yol verdik ki, Allah bizi qədim insanlar kimi cəzalandırdı?! Biz niyə buraları Ba-



bilə döndərdik? Babilg ağlına gələn fikir bir andaca bütün ruhuna hakim kəsildi. İbadətə toplaşan insan dəstəsinə tərəf deyil, əksinə geri qaçmağa başladı. Arzuları pərən düşüb perikmiş, uçulub-dağılmış, şüşə kimi çiliklənmiş, qəlbi böyük, cismi kiçik fidan bir uşaqdan ona miras kimi qalmış illərlə həsrətində olduğu fırçalarını, boyalarını və ağappaq rəsm kağızlarını qoyduğu yerə. O yerə ki, o bu gün viranəlikdə adsız şahanəlik yaratmışdı. Və indi rəssam şahanə tabloya ad qoymaq üçün geri qaçırdı. Səhərdən bəri ad tapa bilmədiyi rəsm əsərinə ad tapmışdı. Əlləri titrəyə-titrəyə rəsm əsərinin kənarına imza ataraq yazdı: "????? Ç???????? ?ö? ??Ç?ö?- Uşşu's-senunu fi Babil" - "Babildə qaranquş yuvası"

---

İlham Nicatxan oğlu Şabiyev 1977-ci ildə Bakı şəhərində anadan olub. Azərbaycan Tibb Universitetini bitirib, Füzuli, Laçın və Kəlbəcər rayonlarında hərbi həkim kimi xidmət edib. Ehtiyatda olan tibb xidməti mayorudur. Vətənpərvər mövzüda şəhidlərimizə, qəhrəmanlarımıza aid şeirlər yazır. Türkiyə Cümhuriyyətində 4 dəfə televiziya proqramlarında iştirak edib, şeirlərin səsləndirib. Müəllifin bəzi şeirlərini təqdim edirik:

## Nur üzlü şəhidim

Yoxdur sorğu, yox sual
Başlasa da qiyamət
Dinmir şeytan, olur lal
Ona vermədin möhlət.

Axıtdığın damla qan
Şəhid olan torpaqda
Hər qarışını suvaran
Yanar şam tək ocaqda.

Sənin adın pak, təmiz
Aramızda öz səsin.
Dalğalar qovur dəniz
Sən üçün vurur ləpəsin.

Tarla yanmasın susuz
Necə ki, yağış narın.
Şəhid parlayan ulduz
Şəhid mənim baharım.

Sən üçün Allah ayəsin
Sürə vardır Quranda
Oxuyanda hər Yasin
Olur dindən, imandan.

Sənin dəyişdi dünyan
Əməllərin, sözlərin
Ürəklərdə var duyan
Sənin nurlu gözlərin.

Bir adını çəkməsən
Sanki danışdın, dindin
İsdədin demək nəsə
Sanki güldün, sevindin.

İşıq saçır gün, ay nur
Əsəndə sərin külək
Sənlə duyuruq qürur
Şəhid yaşayır demək.

## Vətən tərifi

***Vətən, millətin adı***
***Onu Yurdu, məkanı,***
***Mübarizin, Poladın***
***On üçün axılan qanı.***

***Üzeyirin, Cavadın***
***Onun sözü, bəstəsi***
***Şəhid olan Salatın***
***Qarabağ şikəstəsi.***

***Vətən, qırpmayan gözü***
***O, mübariz əsgərin***
***İradəsidir, dözüm***
***Bəslər sevgisin dərin.***

***Vətən, ağlayan səsi***
***Doğulan tək körpənin***
***Can qoyan, son nəfəsin***
***On üçün qurban gedənin.***

***Qürbətdə gələn adı***
***Səslənəndə hər dəfə***
***Vətən adı ucadır***
***Söylənən tək müzəffər.***

***Şəhidlərin ruhu şad***
***Adın səslənən kimi***
***Ol firavan, sən abad***
***Yaz çiçəklənən kimi.***

***O, Vətən Şəhriyarın***
***Həsrət çəkən gözləri***
***Görməyə ixtiyarı***
***O, yanğısı sözləri.***

***Ürək vurmur Vətənsiz***
***Damarımnan axmır qan***
***İnsan ruhdur bədənsiz***
***Olsa səndən nigaran.***

## Ana rəsmi

Yoxdur elə bir rəssam
Ana şəkli çəkməsin
Keçirtməsin həyəcan
Əldə fırça əsməsin.

Ola bilmir o rəssam
Anasın düşünməsin
Duyğulanmasın o an
Çəkəndə sevinməsin.

Ana sığmır fırçaya
Analar cənnətindir
Neçə səs salır boya
Onun ətri mənimdır.

Qırpmır ana gözlərin
Sanki şəkil canlıdır,
Nəfəsin çəkir dərin
Rəssam həyəcanlıdır.

Analar ağlamasın
Sanki şəkil sevinir
Simalar oxşamasa
Ürəkləri eynidir.

Çəkə bilərmi rəssam?
Şəkli göz yaşarmasa
Qala bilmirəm anam,
Mən sənə yalvarmasam.

Çək rəsmini görünsün
Kövrək ana ürəyi
Görək necə döyünsün
Səndən budur istəyim.

Yoxdur elə bir boya
Onun rəngi bilinsin,
Anasından kim doyar?
Varmı bilən söyləsin?

## *Əməkdar rəssam Mübariz Əkbərov - 70*

# Emalatxanası tarixin yaddaşıdır

Hər zaman Ulu Şeyx Nizami yurdu olan qədim Gəncə böyük tarixi şəxsiyyətlər yetirməklə elm, mədəniyyət beşiyi hesab edilib. Bu qədim torpaq özünün tarixi ənənələrini qorumaqla yanaşı yetişdirmiş olduğu şəxsiyyətləri ilə tanınıb. Məhz onlar öz yaradıcılıqları ilə Gəncənin adını ucalda bilib. Hər zaman olduğu kimi özünün əsrarəngiz gözəlliyi ilə insanı valeh edən, qəhrəmanlıq tarixinin bir parçasına çevrilən, şer-sənət beşiyi olan qədim Gəncədə dünyaya göz açan, Azərbaycan Respublikasının Əməkdar rəssamı, "Turan" Elmlər Akademiyasının fəxri akademiki Mübariz Səməd oğlu Əkbərovun əsrarəngiz yaradıcılıq yolu, sənət dünyası nəinki ölkəmizdə, habelə onun hüdudlarından kənarda da ünlü sənət nümunəsi olaraq geniş şəkildə tanına bilib. Məhz bu gün Mübariz Əkbərov yaradıcılığından söhbət açmaqla onun əsrarəngiz sənət nümunələri haqqında ətraflı danışmaq istərdim.



Mübariz Səməd oğlu Əkbərov 2 aprel 1955-ci ildə Gəncə şəhərində anadan olub. O, 1971-ci ildə Gəncə Rəssamlıq məktəbini, 1975-ci ildə Gəncə Pedaqoji Texnikomunun "Rəssamlıq" fakültəsini həmçinin 1985-ci ildə isə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Rəssamlıq" fakültəsini bitirib.



Onun yaradıcılığına nəzər salarkən qeyd etmək lazımdır ki, 1993-cü ildə Bakı şəhərində təşkil edilən "Azərbaycan folkloru" müsabiqə sərgisində ikinci dərəcəli diploma layiq görülüb. 1995-ci ildə Əlyazmalar İnstitutunda fərdi sərgisi təşkil olunub. Daha sonra 1996-cı ildə Bakı şəhərində təşkil olunan "Dekorativ tətbiqi sənət" üzrə müsabiqə sərgisinin laureatı və qalibi olub. 2000-ci ildə "Dədə Qorqud-1300" müsabiqə sərginin laureatı və qalibi olaraq, 2001-ci ildə Gəncə şəhərində fərdi sərgisi həmçinin 2003-cü ildə Bakı şəhərində "Sənət inciləri" adlı fərdi sərgisi və 2004-cü ildə isə yenə də Gəncə şəhərində növbəti fərdi sərgisi təşkil edilib. Mübariz Əkbərov 1997-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür. Ona uzun müddətli yaradıcılıq yolu nəzərə alınmaqla Azərbaycan Respublikası Prezidenti, cənab İlham Əliyevin 19 sentyabr 2007-ci il tarixli məlum Sərəncamı ilə "Azərbaycan Respublikasının Əməkdar rəssamı" fəxri adı verilib.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində təhsil aldığı illər ərzində Şərq və Azərbaycan xalçasının eləcə də dekorativ-tətbiqi sənət nümunələri məziyyətlərinin daha dərindən öyrənilməsi həmçinin dünya miqyasında tanıdılmasında Xalq rəssamı Lətif Kərimovun tələbəsi olaraq yaradıcılıq imkanlarının daha da genişlənməsi istiqamətində mühüm rol oynadığını xüsusi olaraq qeyd etmək lazımdır. Bu baxımdan sənət məziyyətlərindən söhbət düşərkən Mübariz Əkbərov ilk öncə deyir: "Lətif Kərimovun tövsiyyəsi ilə bu sənətə gəldim. Tədricən təkminləşdirdikcə sənətin incəliklərini daha dərindən öyrənə bildim. Bu gün xoşbəxtəm ki, dünya şöhrətli sənət əsərləri olan işlər ərsəyə gətirə bildim. Bununla da deyə bilərəm ki, dünyanın hər yerindən maraqlanır, gəlib sənət əsərlərimdən ibarət işlərimə baxırlar. Əlbəttə ki, xoşbəxt taleli bir insan olmaq hər kəsə nəsib olmur. Bu baxımdan xoşbəxt taleli bir yaradıcılıq yolum var".



Xüsusi olaraq qeyd etmək lazımdır ki, Xalq rəssamı Lətif Kərimovun anadan olmasının 110 illiyi münasibətilə "Lətif Kərimov ili" elan edilən bir zaman kəsiyində Azərbaycan Xalça muzeyində Mübariz Əkbərovun dekorativ-tətbiqi sənət nümunələrindən ibarət "Metalda həkk olunmuş gözəllik" adlı sərgisi təşkil olunub. Sərgi muzeydə keçirilən "I Beynəlxalq Türk dünyasının ortaq dili naxışlar" adlı simpozium ərəfəsində təşkil edilməklə Lətif Kərimovun əvvəllər nümayiş olunmayan müəllif eskizləri də burada geniş tamaşaçı auditoriyasına təqdim edilib.

Bildiyimiz kimi azərbaycanlıların Ermənistandan (Qərbi Azərbaycandan) deportasiyası və köçürülməsi hələ XVIII əsrdən başlanıb. Bu dövrdə məhz Qərbi Azərbaycandan azərbaycanlıların, ümumiyyətlə müsəlmanların deportasiyası üç mərhələdə aparılıb. Məhz Mübariz Əkbərovun ailə üzvləri də 1947-ci il dekabrın 23-də İ. Stalinin imzası ilə SSRİ Nazirlər Sovetinin Ermənistan SSR-in kolxozçu və digər azərbaycanlı əhalisinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi barədə qərarından sonra 1948-ci il martın 10-da köçürmə üzrə tədbirlər haqqında daha bir qərar verildiyi zaman Qərbi Azərbaycandan deportasiya olunanlar siyahısında olub. Bu zaman onun babası Hüseyn kişi ailə üzvləri ilə birlikdə Gəncəyə köçürülüblər. O illəri xatırlayan Mübariz müəllim deyir: "Hüseyn babam 1948-ci ildə Qərbi Azərbaycandan Gəncəyə deportasiya edildikdə özü ilə "Qara dəstə" adlı xəncərini gətirmişdir. Mən anadan olduqda babamın Qərbi Azərbaycandan gətirdiyi və yadigarı olan "Qara dəstə" adlı xəncəri hər zaman yastığımın altında olub. Sənətə gəldikdən sonra isə bu xəncəri də yenidən hazırlamaq qərarında oldum. Xoşbəxtlikdən taleyimə nəsib olub ki, ata-babalarımın mənə yadigar qoyduqları "Qara dəstə" adlı xəncərini də yenidən hazırlaya bildim".



Həmçinin sənətkar bu dövr ərzində İrəvanlı ağsaqqalların təklifləri əsasında İrəvan xəncərinin də hazırlanaraq ərsəyə gəlməsinə müvəffəq ola bilib.

Bu gün Mübariz Əkbərov bütün əlişlərini milli arnamentlərlə bəzəməyi sevdiyini xüsusi olaraq qeyd edir. Məhz onun ərsəyə gətirdiyi qılınç-xəncər ustadı olaraq barmaqlarının nəvazişiylə polad üzərindəki nəfis naxışlarla bəzədilmiş sənət nümunələri Azərbaycanımızın milli-mənəvi dəyərləri, tarixi-mədəni irsi olaraq təqdim edilir. Mübariz Əkbərovun yaratdığı sənət nümunələri təkcə forma və işlənmə texnikasının nəfis formasında deyil, eyni zamanda zərifliyi və incəliyi ilə də göz oxşayır. Məhz onun işlədiyi sənət nümunələri məmulatlarda müxtəlif orjinal variasiyarla yanaşı yüksək bədiiliyi ilə diqqət mərkəzində olmağı bacarır. Bu barədə söhbət düşərkən ustad sənətkar deyir: "Düzdür mən rəngkarlıqğı bitirmişəm. Ancaq bütünlükdə sənət əsərlərimdə istifadə etdiyim arnametləri Lətif Kərimov mənə aylarla öyrədib. Onun məsləhətləri ilə bütün bu arnamentlər üzərində daha dərindən işləməyi öyrənə bildim".

Həmçinin qeyd etmək lazımdır ki, əksər işləri əsasən poladdan hazırlayan sənətkar bu əlişlərinin uzun müddətli bir vaxta ərsəyə gəldiyini söyləyir. Onun bütün işlərinin üzərində Gəncə adı xüsusi olaraq yazılır. O bununla da Ulu Şeyx Nizami yurduna məxsusluğunu qoruyub saxlaya bilir. Onun yaradıcılığında müxtəlif mədəniyyətlərə və dövrlərə aid olan qılınç-xəncər nümunələri Azərbaycan ənənəvi ornamentləri ilə bəzədilməklə yanaşı özünəməxsus ştrix və incəlikləriə böyük sənətkarlıq nümunələri olaraq təqdim edilə bilir. Bu barədə sənətkarla söhbət zamanı bir az da düşünərək deyir: "Azərbaycanın hərb tarixində bizim qılınçların və xəncərlərin xüsusi yeri olub. Hər xalqın öz qılıncı, xəncəri mövcuddur. Məsələn, "Qafqaz xəncəri" respublikamızın Quba, Şəki, Zaqatala və Gəncə bölgələrində geniş yayılmış silahlarından hesab edilir. "Qafqaz xəncəri"nin bir neçə növü vardır: "Dağıstan" və "Çərkəzi". "Dağıstan" növü enli, "Çərkəzi" növü isə bir qədər nazik olur. Bu baxımdan bu kimi sənət əsərləri üzərində işləmək daha məsuliyyətli və mənim üçün daha böyük maraq kəsb edir".

*(Ardı var)*

**Anar Ərtoğrul Burcəliyev**
**Teatrşünas-tənqidçi**